# “ATL TECH” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartları əsasında Hazırlanmış Konsolidasiya edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**
31 dekabr 2022-ci il il tarixində başa çatmış il üzrə

# "ATL TECH" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## MÜNDƏRİCAT

**Səhifə**


| | |
|---|---|
| KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ | 1 |
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 2-3 |
| 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARI: | |
| Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat | 4 |
| Konsolidasiya edilmiş məcmu gəlir haqqında hesabat | 5 |
| Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat | 6 |
| Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7 |
| Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlər | 8-44 |

**KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI**
**31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**

Bu bəyannamə "ATL TECH" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") və onun törəmə müəssisələrinin (birlikdə "Qrup") Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") əsasında hazırlanmış konsolidasiya edilmiş maliyyə hesabatları ilə bağlı rəhbərliyin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik 31 dekabr 2022-ci il tarixinə Qrupun maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun şəkildə hazırlanması üçün məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-yə müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa, onun konsolidasiya edilmiş maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Qrup işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə konsolidasiya edilmiş maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Qrup daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq düzgün hazırlanması və Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarını istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin Qrupun fəaliyyət göstərdiyi ölkələrin qanunvericilik və mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Qrupun aktivlərinin mühafizə edilməsinin təşkil olunması;
- Fırıldaqçılıq, xətalar və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə konsolidasiya edilmiş maliyyə hesabatları 18 avqust 2023 -cü il tarixində Qrupun rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**İdarə Heyəti adından:**

**Əliyev Anar**
**Direktor**

18 avqust 2023-cü il
Bakı, Azərbaycan Respublikası

TID CONSULTING

"ATL TECH" Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarı və Rəhbərliyinə:
No.: ______________________

**RƏY**

Biz, "ATL TECH" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") və onun törəmə müəssisələrinin (birlikdə "Qrup") 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu siyasətlərinin xülasəsi və digər izahlı qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.
Fikrimizcə, maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə olan maliyyə vəziyyətini və onun həmin tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Bəynəlxalq Standartlarına ("MHBS") uyğun olmaqla bütün əhəmiyyətli hallarda düzgün əks etdirir.

**Müsbət Rəy üçün Əsaslar**

Biz auditi Maliyyə Hesabatlarının Bəynəlxalq Standartlarına ("MHBS") uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üçün Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti.

Rəhbərlik bu maliyyə hesabatlarının MHBS-in tələblərinə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə və maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya xətalardan qaynaqlanan əhəmiyyətli təhriflərin qarşısının alınması məqsədi ilə zəruri hesab etdiyi daxili nəzarət sisteminin təşkil edilməsinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Audit komitəsi Cəmiyyətin maliyyə hesabatlarının hazırlanma prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Konsolidasiya edilmiş Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Qrupu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud alternativi olmadığı halda, Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Qrupun maliyyə hesabatlarının hazırlanma prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

City Point Baku, 9th floor,
102A J.Mammadguluzadeh Str.,
AZ1022, Baku, Azerbaijan
Tel: (+994 12) 310 24 20/21/40
Mob: (+994 55) 236 86 46
office@tidconsulting.com
www.tidconsulting.com

***Konsolidasiya edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti***

Bizim məqsədimiz konsolidasiya edilmiş maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış konsolidasiya edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Konsolidasiya edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Qrupun daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Qrupun fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda konsolidasiya edilmiş maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin konsolidasiya edilmiş maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

**Auditor Reyhan Paşayeva**

____________________________

18 avqust 2023-cü il
Bakı, Azərbaycan Respublikası

AZƏRBAYCAN RESPUBLİKASI · TID KONSALTİNQ QSC · AZERBAIJAN REPUBLIC · TID CONSALTING CJSC

# "ATL TECH" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNƏ
*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Uzunmüddətli aktivlər:** | | | |
| Əmlak, tikili və avadanlıqlar | | 175,010 | 273,456 |
| Qeyri-maddi aktivlər | | 7,532 | 20,195 |
| Maliyyə aktivləri | | 230,770 | 184,570 |
| İnvestisiya mülkiyyəti | | | |
| Əlaqəli təşkilata qoyulan investisiya | | | |
| Əmlak, tikili və avadanlıqlar üzrə avans ödənişləri | | | |
| Təxirə salınmış vergi aktivi | | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **413,312** | **478,221** |
| **Cari aktivlər:** | | | |
| Mal-material ehtiyatları | | 592,268 | 868,500 |
| Debitor borcları və digər alınacaq vəsaitlər | | 135,228 | 364,653 |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 32,584 | 255,106 |
| Verilmiş avaslar | | -- | 262,126 |
| Gələcək dövrün xərcləri | | -- | 16,346 |
| Digər cari aktivlər | | 66,429 | 91,675 |
| **Cəmi cari aktivlər** | | **826,509** | **1,858,406** |
| **CƏMİ AKTİVLƏR** | | **1,239,821** | **2,336,627** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| **Uzunmüddətli öhdəliklər:** | | | |
| Təxirə salınmış gəlir | | | |
| Bank kreditləri | | 295,000 | -- |
| İcarə öhdəlikləri | | | |
| Təxirə salınmış vergi öhdəliyi | | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **295,000** | **--** |
| **Cari öhdəliklər:** | | | |
| Təxirə salınmış gəlir | | | |
| İcarə öhdəlikləri | | | |
| Vergi və sair məcburi ödənişlər | | 75,832 | 235,386 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | | 85,802 | 690,548 |
| Alınmış avans | | 568,952 | 1,197,458 |
| Təsisçi və ya səhmdarlarla hesablaşmalar | | 281,323 | 11,470 |
| Digər cari öhdəliklər | | 98,460 | 6,475 |
| **Cəmi cari öhdəliklər** | | **1,110,369** | **2,141,337** |
| **Cəmi öhdəliklər** | | **1,405,369** | **2,141,337** |
| KAPİTAL: | | | |
| Nizamnamə kapitalı | | 200 | 200 |
| Digər kapital | | -- | -- |
| Bölüşdürülməmiş mənfəət | | (165,748) | 195,090 |
| Qeyri-nəzarət payı | | | |
| **Cəmi kapital** | | **(165,548)** | **195,290** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **1,239,821** | **2,336,627** |

**İdarə Heyəti adından:**

**Əliyev Anar**
**Direktor**

18 avqust 2023-cü il
Bakı, Azərbaycan Respublikası

# "ATL TECH" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## KONSOLİDASİYA EDİLMİŞ MƏCMU GƏLİR HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Gəlir | | 2,881,105 | 4,527,904 |
| Satışın maya dəyəri | | (610,920) | (1,909,186) |
| **Ümumi mənfəət (zərər)** | | **2,270,185** | **2,618,718** |
| Ümumi və inzibati xərclər | | (2,410,584) | (2,001,600) |
| Satış və paylanma xərcləri | | (3,488) | (84,551) |
| Mal-material ehtiyatları üzrə yaradılmış ehtiyat | | -- | -- |
| Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri | | -- | -- |
| **Əməliyyat mənfəəti (zərər)** | | **(143,887)** | **532,567** |
| Maliyyə xərcləri | | -- | -- |
| Digər gəlirlər/(xərclər), xalis | | (179,249) | (178,918) |
| **Mənfəət vergisi xərcindən əvvəlki mənfəət (zərər)** | | **(323,136)** | **353,649** |
| Mənfəət vergisi xərci | | -- | (73,986) |
| **İl üzrə xalis mənfəət (zərər)** | | **(323,136)** | **279,663** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR** | | **(323,136)** | **279,663** |

**İdarə Heyəti adından:**

**Əliyev Anar**
**Direktor**

18 avqust 2023-cü il
Bakı, Azərbaycan Respublikası

## "ATL TECH" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### KONSOLİDASİYA EDİLMİŞ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
### 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Digər kapital | Bölüşdürülməmiş mənfəət/ (yığılmış zərərlər) | Qeyri-nəzarət payı | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2021-ci il** | **200** | **--** | **411,835** | **--** | **412,035** |
| Təsisçi tərəfindən kapital qoyuluşu | -- | -- | -- | -- | -- |
| Təsisçi tərəfindən qoyulmuş kapitalın geri çəkilməsi | -- | -- | (438,889) | -- | **(438,889)** |
| İl üzrə cəmi məcmu gəlir | -- | -- | 279,663 | -- | **279,663** |
| Mənfəət (zərər) üzrə düzəlişlər | -- | -- | -- | -- | -- |
| Mənfəətin digər istifadəsi | -- | -- | (57,519) | -- | **(57,519)** |
| **31 dekabr 2021-ci il** | **200** | **--** | **195,090** | **--** | **195,290** |
| Təsisçi tərəfindən kapital qoyuluşu | -- | -- | -- | -- | -- |
| Təsisçi tərəfindən qoyulmuş kapitalın geri çəkilməsi | -- | -- | -- | -- | -- |
| İl üzrə cəmi məcmu gəlir | -- | -- | (323,136) | -- | **(323,136)** |
| Mənfəət (zərər) üzrə düzəlişlər | -- | -- | -- | -- | -- |
| Mənfəətin digər istifadəsi | -- | -- | (37,702) | -- | **(37,702)** |
| **31 dekabr 2022-ci il** | **200** | **--** | **(165,748)** | **--** | **(165,548)** |

**İdarə Heyəti adından:**

**Əliyev Anar**
**Direktor**

18 avqust 2023-cü il
Bakı, Azərbaycan Respublikası

## KONSOLİDASİYA EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi qeyd edilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| Mənfəət vergisi xərcindən əvvəlki mənfəət | | (323,136) | 353,647 |
| Mənfəət vergisi xərcindən əvvəlki mənfəətin xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirilməsi üzrə düzəlişlər: | | | |
| Köhnəlmə və amortizasiya xərcləri | | 111,109 | 92,035 |
| Əmlak, tikili və avadanlıqların satışı üzrə gəlir/zərər | | | |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəlki əməliyyat fəaliyyətləri üzrə daxil olan pul vəsaitləri** | | **(212,027)** | **445,682** |
| Əməliyyat aktivləri və öhdəlikləri üzrə dəyişikliklər: | | | |
| Mal-material ehtiyatlarında dəyişiklik | | 276,232 | 159,425 |
| Debitor borcları və digər alınacaq vəsaitlərdə dəyişiklik | | 229,425 | (77,591) |
| Verilmiş avanslar | | 262,126 | 623,462 |
| Gələcək dövrün xərcləri | | 16,346 | |
| Digər cari aktivlərdə dəyişiklik | | 25,246 | (10,117) |
| Bank kredit üzrə hesablaşmalar | | 295,000 | |
| Ödəniləcək vergilər | | (159,554) | 247,122 |
| Alınmış avanslar | | (628,506) | (1,327,234) |
| Təsisçilərlə hesablaşmalar | | 269,853 | (7,730) |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlərdə dəyişiklik | | (604,746) | 731,484 |
| Digər öhdəliklər | | 91,985 | (29,621) |
| **Əməliyyat fəaliyyətlərindən daxil olan pul vəsaitləri** | | **73,407** | **309,200** |
| Ödənilmiş mənfəət vergisi | | | (73,986) |
| **Əməliyyat fəaliyyətlərindən yaranan xalis pul vəsaitləri** | | | **(73,986)** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| Əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin satın alınması | | | (58,481) |
| Maliyyə aktivləri | | (46,200) | (72,290) |
| **İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | | **(46,200)** | **(130,771)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTLƏRİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | | |
| Ödənilmiş dividentlər | | | (438,889) |
| Kapital qoyuluşları | | | |
| Təsisçi tərəfindən kapital qoyuluşu | | | |
| Mənfəətin digər istifadəsi | | (37,702) | (57,519) |
| **Maliyyələşdirmə fəaliyyətlərində (istifadə olunan)/yaranan xalis pul vəsaitləri** | | **(37,702)** | **(496,408)** |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS (AZALMA)/ARTIM | | | |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə*** | | **255,106** | **201,389** |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna*** | | **32,584** | **255,106** |

**İdarə Heyəti adından:**

**Əliyev Anar**
**Direktor**

18 avqust 2023-cü il Bakı, Azərbaycan Respublikası

## 1. GİRİŞ

"ATL TECH" Məhdud Məsuliyyətli Cəmiyyəti ("Cəmiyyət") müstəqil təsərrüfat subtekti olmaqla, öz fəaliyyətini Azərbaycan Respublikasının Mülki Məcəlləsi, qüvvədə olan digər qanunvericilik aktları və bu nizamnamə əsasında həyata keçirir və əsas məqsədi mənfəət götürməkdən ibarət olan kommersiya təşkilatıdır. Cəmiyyət 22 fevral 2013-cü il tarixində 2002575181 saylı vergi eyniləşdirmə nömrəsi ilə qapalı səhmdar cəmiyyəti kimi qeydiyyata alınmışdır.

Cəmiyyətin nizamnamə kapitalı 100,00 (yüz) manata bərabər tutulan 100 (yüz) ədəd paydan ibarətdir. Hər bir payın nominal dəyəri 1 (bir) manatdır. Cəmiyyətin təsisçilərinin nizamnamə kapitalındakı payları aşağıdakı kimi müəyyən edilmişdir:

**Şərifov Elçin Mərdan oğlu – 90,00 manat, 90 pay, 90% (pul şəklində);**
**Hacıyev Vurğun Şahbəndər oğlu – 10,00 manat, 10 pay, 10% (pul şəklində);**

Qanuni təmsilçi: Əliyev Anar
Cəmiyyətin hüquqi ünvanı: AZ1022, Bakı şəhəri, Nəsimi rayonu, Bülbül pr, ev 105, mənzil 12

31 dekabr 2021 və 2022-ci il tarixlərinə Cəmiyyətin aşağıdakı törəmə və əlaqəli müəssisələri olmuşdur:

| Törəmə müəssisənin adı | Əsas fəaliyyət | Müəssisənin kapitalında pay nisbəti |
|---|---|---|
| "ATL AKADEMİYA" MMC | Təhsil sahəsində sair yardımçı xidmətlər | 70% |

## 2. ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTİNİN XÜLASƏSİ

**Təqdimatın əsasları**

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi ("MHBSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

**Konsolidasiyanın prinsipləri**

Konsolidasiya edilmiş maliyyə hesabatları Cəmiyyətin və onun nəzarəti altında olan müəssisələrinin (onun törəmə müəssisələri) maliyyə hesabatlarını birləşdirir. Cəmiyyətin, fəaliyyətlərindən mənfəət əldə etmək məqsədilə sərmayə qoyulan müəssisənin maliyyə və əməliyyat siyasətini idarə etmək gücü olduqda nəzarət əldə edilir.

Törəmə müəssisələrin il ərzində əldə etdiyi gəlir və xərclər müvafiq olaraq əldə etmənin qüvvəyə minmə tarixindən silinmənin qüvvəyə minmə tarixinə qədər məcmu gəlir haqqında konsolidasiya edilmiş maliyyə hesabatına daxil edilir. Hətta qeyri-nəzarət payı üzrə nəticələr mənfi saldo ilə yekunlaşdığı hallarda belə törəmə müəssisələrin cəmi məcmu gəliri Qrupun əsas səhmdarlarına və qeyri-nəzarət payına aid edilir.

Müvafiq olduqda, Cəmiyyətin digər üzvləri tərəfindən istifadə olunmuş uçot siyasətinin Qrup tərəfindən qəbul edilmiş qaydalara uyğunlaşdırılması üçün törəmə müəssisələrin və filialların maliyyə hesabatlarına düzəlişlər olunur.

Qrup üzvləri arasında əməliyyatlarla əlaqəli bütün qrupdaxili aktiv və öhdəliklər, kapital, gəlirlər, xərclər və pul vəsaitlərinin hərəkəti tam konsolidasiya zamanı silinir.

**Müəssisələrin birləşməsi və qeyri-nəzarət payının satın alınması**

Müəssisələrin birləşməsi satınalma metodundan istifadə etmək üçün hesablanır. Satın alınmanın dəyəri, alış tarixində ədalətli dəyərlə ölçülmüş köçürülən ümumi məbləğ və əldə edilmiş müəssisədə qeyri-nəzarət payının miqdarı kimi ölçülür. Hər bir müəssisə birləşməsi üçün, Qrup əldə edilmiş müəssisənin qeyri-nəzarət paylarını ədalətli dəyərdə və ya əldə edilmiş müəssisənin müəyyən edilə bilən xalis aktivlərinin mütənasib payı ilə ölçməyi seçir. Satın alınma ilə bağlı xərclər baş verdiyi an tanınır və inzibati xərclərə daxildir.

Qrup yeni müəssisə əldə etdikdə, müqavilə şərtlərinə, iqtisadi şəraitə və alış tarixindəki müvafiq şərtlərə uyğun olaraq müvafiq təsnifat və təyinat üçün qəbul edilmiş maliyyə aktivlərini və öhdəliklərini qiymətləndirir. Buraya əsas müqavilə üzrə alıcı tərəfindən əlaqəli törəmələrin ayrılması daxildir.

Müəssisə birləşmələri nəticəsində yaranan şərti öhdəlik, müəssisə birləşməsinin bir hissəsi kimi, alış tarixində ədalətli dəyərlə qiymətləndirilir. Maliyyə aləti olan və "Maliyyə alətləri: Tanınma və ölçülmə" adlı 39 saylı MUBS-da tətbiq olunan, aktiv və ya öhdəlik kimi təsnifləşdirilən şərti öhdəlik dəyəri ədalətli dəyərlə ölçülür və 39 saylı MUBS-a uyğun olaraq ədalətli dəyərdə dəyişikliklər mənfəət və zərər hesabatında əks etdirilir.

Qudvil, ilkin olaraq, alış qiyməti ilə ölçülür (köçürülən ümumi məbləğdəki artıq məbləğ və tanınmış qeyri-nəzarət payı və əldə edilmiş xalis müəyyən edilə bilən aktivlər və qəbul edilmiş öhdəliklər üzrə tutulan hər hansı əvvəlki faiz). Alınmış xalis aktivlərin ədalətli dəyəri köçürülmüş ümumi məbləğdən artıq olduqda, Qrup alınmış bütün aktivləri və qəbul edilmiş öhdəliklərin hər birinin düzgünlüyünü müəyyən edir və alış tarixində tanınacaq məbləğləri ölçmək üçün istifadə olunan prosedurları nəzərdən

keçirir. Yenidən qiymətləndirmə yenə də xalis aktivlərin ədalətli dəyəri köçürülmüş ümumi məbləğdən artıq olduqda, gəlir mənfəət və ya zərər hesabatında tanınır.
İlkin tanınmadan sonra qudvil yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə ölçülür. Dəyərsizləşmə testi məqsədilə, müəssisələrin birləşməsindən əldə edilmiş qudvil, əldə edilmiş tarixdən etibarən, əldə edilən müəssisənin digər aktiv və ya öhdəliklərinin olub-olmamasından asılı olmayaraq, birləşmədən faydalanması gözlənilən Qrupun pul yaradan vahidlərinin hər birinə bölünür.

**Ümumi nəzarət altında olan müəssisələrin birləşməsi**

"Müəssisələrin Birləşməsi" adlı 3 saylı MHBS ümumi nəzarət altında olan müəssisələrə və ya müəssisələrin birləşməsinə tətbiq edilmir. Ümumi nəzarət altında olan qurumlar və ya müəssisələrin cəlb olunduğu müəssisələrin birləşməsi müəssisələrin birləşməsindən əvvəl və sonra eyni tərəf və ya tərəflərin nəticə etibarı ilə nəzarət etdiyi və bu nəzarətin ötürülmədiyi bütün birgə qurumlar və ya müəssisələrin birləşməsidir. "Uçot siyasətləri, uçot qiymətləndirmələrində dəyişikliklər və səhvlər" adlı MUBS 8 standartına müvafiq olaraq daha etibarlı və münasib məlumatlarla təmin etdiyi üçün rəhbərlik bu növ əməliyyatların uçota alınması üçün "tarixi dəyər metodu"ndan istifadə etmişdir. "Tarixi dəyər metodu"na mövcud balans dəyərlərindən istifadə etməklə əldə edilmiş müəssisənin aktiv və öhədliklərinin uçota alınması daxildir. Müəssisəni alan şəxsin investisiya xərci və satan şəxsin kapitalı arasında fərq konsolidasiya üzrə kapital çərçivəsində ayrıca ehtiyat olaraq təqdim edilir.

**Fasiləsizlik prinsipi**

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Qrupun fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik hesab edir ki, Qrup yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Qrupun ləğvinə nə istək, nə də ehtiyac olacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcuddur.

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət gedişində Qrupun aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi konsolidasiya edilmiş maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Qrupun fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Rəhbərliyin fəaliyyətinin fasiləsizliyi fərziyyəsini qiymətləndirməsi mahiyyət etibarilə qeyri-müəyyən olan hadisələrin və ya şərtlərin gələcək inkişafı ilə əlaqədar müəyyən bir zamanda mühakimə yürütməyi əhatə edir.

**Cari və uzunmüddətli təsnifləşdirmələr**

Qrup aktiv və öhdəlikləri cari/uzunmüddətli təsnifləşdirmələr əsasında konsolidasiya edilmiş maliyyə hesabatlarında təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv sayılır:

- Adi əməliyyat dövründə satılması və ya istehlak edilməsi nəzərdə tutulduqda və ya satılması ehtimal edildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı on iki ay ərzində satılması ehtimal edildikdə; və ya
- Pul vəsaitləri və onların ekvivalentlərinin hesabat tarixindən sonra ən azı on iki ay müddətində mübadilə edilməsi və ya öhdəliyin ödənilməsi üzrə istifadə edilməsi məhdudlaşdırılmadıqda.

Digər bütün aktivlər uzunmüddətli aktivlər sayılır.

Öhdəlik aşağıdakı hallarda cari öhdəlik sayılır:

- Adi əməliyyat dövrü ərzində ödənilməsi gözlənildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı on iki ay ərzində ödənilməsi ehtimal edildikdə; və ya
- Hesabat dövründən sonra ən azı on iki ay müddətində öhdəliyin ödənilməsini təxirə salmaq üzrə qeyri-şərtsiz hüquq mövcud olmadıqda.

Qrup bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər olaraq təsnif edir.

Təxirə salınmış vergi aktiv və öhdəlikləri uzunmüddətli aktiv və öhdəliklər kimi təsnif edilir.

**Təqdimatın digər əsasları**

Konsolidasiya edilmiş maliyyə hesabatları, başqa cür qeyd edilmədiyi hallarda, Azərbaycan Manatı ("AZN") ilə ifadə edilir. Konsolidasiya edilmiş maliyyə hesabatları şərti dəyər kimi ədalətli dəyərdə qeydə alınan əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər və investisiya mülkiyyəti istisna olmaqla tarixi dəyər əsasında tərtib edilmişdir.

MHBS-nin qəbul edilməsi Qrupun mühasibat uçotu siyasətində dəyişikliklərə səbəb olmuşdur. Düzəliş edilmiş mühasibat prinsipləri aşağıda göstərilmişdir:

**Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər**

Əmlak, tikili və avadanlıqlar peşəkar müstəqil qiymətləndiricilərin apardığı qiymətləndirmə ilə bazara əsaslanan sübutlardan formalaşmış yenidən qiymətləndirmə tarixindəki ədalətli dəyərdən sonradan yığılmış köhnəlmə və dəyərsizləşmə zərərləri çıxılmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarında şərti dəyər olaraq ədalətli dəyərdə qeydə alınır.

| | |
|---|---|
| Maşın və avadanlıqlar | 3-20 il |
| Binalar və bənzər tikililər | 5-70 il |
| Elektrolizatorlar | 5-15 il |
| Nəqliyyat vasitələri | 5-20 il |
| Digər | 5-20 il |
| Qeyri-maddi aktivlər | 2-10 il |
| İstifadə hüququ olan aktivlər | icarə müddətindən asılıdır |

Aktivin amortizasiyası istifadəyə yararlı olduqda, yəni rəhbərliyin nəzərdə tutduğu qaydada işləyə bilməsi üçün lazım olduğu yerdə və şəraitdə olduqda başlayır. Aktivin amortizasiyası, satış üçün saxlanılan aktiv kimi təsnifləşdirildiyi (və ya satış üçün saxlanılan kimi təsnifləşdirilən silinmə qrupuna daxil edildiyi) tarixdən əvvəl, 5 saylı MHBS və aktivin tanınmasının dayandırıldığı tarixinə uyğun olaraq dayandırılır. Buna görə, aktiv gözlədikdə və ya aktiv tamamilə amortizasiya edilmədikdə, aktiv istifadədən çıxdıqda amortizasiya dayandırılmır.

Faydalı istifadə müddəti və amortizasiya metodu hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv əsasda tətbiq edilir.

Aktivin qalıq dəyəri dedikdə, aktivin artıq istifadə edilmiş olması və istifadə müddətinin sonunda olacağı vəziyyətində olması fərziyyəsi ilə, satışın təxmini xərcləri çıxılmaqla Qrupun həmin aktivin satışından əldə edə biləcəyi vəsaitlərin məbləği nəzərdə tutulur.

Aktivin qalıq dəyəri aktivin balans dəyərinə bərabər və ya ondan daha çox olan məbləğə qədər arta bilər. Belə olduğu halda, qalıq dəyəri sonradan aktivin balans dəyərindən aşağı məbləğə qədər azalanadək aktivin amortizasiya haqqı sıfırdır.

Qrup hər bir hesabat tarixinin sonunda əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərinin balans dəyərlərinin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa dəyərsizləşmə zərərinin (əgər varsa) dərəcəsini müəyyən etmək üçün aktivin bərpa edilə bilən məbləği təxmin edilir. Fərdi aktivin bərpa edilə bilən məbləğini qiymətləndirmək mümkün olmadıqda, Qrup aktivin aid olduğu pul vəsaitlərini yaradan vahidin bərpa edilə bilən məbləğini təxmin edir.

Əgər aktivin (və ya nağd pul yaradan vahidin) bərpa edilə bilən məbləği onun balans dəyərindən azdırsa, aktivin (və ya nağd pul yaradan vahidin) balans dəyəri onun bərpa edilə bilən məbləğinə qədər azaldılmalıdır. Aktiv yenidən qiymətləndirilmiş məbləğdə uçota alınıbsa, aktivin dəyərsizləşməsi yenidən qiymətləndirmə rezervinin azalması kimi tanınır, əks halda dəyərsizləşmə zərəri dərhal gəlir və ya zərər hesabatlarında tanınır.

Dəyərsizləşmə zərəri daha sonrakı dövrdə geri qaytarıldıqda, aktivin (və ya nağd pul yaradan vahidin) balans dəyəri onun bərpa edilə bilən məbləğinə qədər qaldırılmalıdır, lakin qiymətdən düşmədən irəli gələn zərərin ləğvi ilə əlaqəli olan aktivin (və ya nağd pul yaradan vahidin) artmış balans dəyəri əvvəlki illərdə həmin aktiv (və ya nağd pul yaradan vahid) üçün heç bir dəyərsizləşmə zərərinin tanınmış olmadığı müəyyən edilmiş baans dəyərindən yuxarı olmamalıdır. Aktiv üçün dəyərsizləşmə zərərinin ləğvi, həmin aktivin yenidən qiymətləndirmə metoduna əsasən təkrar qiymətləndirilmiş məbləğlə əks etdirilməsi istisna olmaqla birbaşa mənfəət və ya zərərdə tanınmalıdır, əks halda qiymətləndirilmiş aktivin dəyərsizləşməsindən irəli gələn zərərin ləğvi yenidən qiymətləndirmə artımı kimi tanınmalıdır.

Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər hesabdan silindikdə və ya onların davamlı istifadəsi artıq iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Əmlak, tikili və avadanlıq vasitələrinin satılaraq hesabdan silinməsi və ya istismardan çıxarılmasından irəli gələn hər hansı gəlir və ya zərər belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunmuş gəlirlər arasında fərq kimi müəyyən edilir və mənfəət və ya zərər hesabında tanınır.

Əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin bir hissəsinin faydalı istifadə müddəti fərqli olduqda, onlar əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin ayrı-ayrı maddələri (əsas komponentləri) kimi uçota alınır.

Əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin bir hissəsinin dəyişdirilməsi ilə əlaqədar xərclər, bu hissədə əks olunan gələcək iqtisadi faydaların Qrupa daxil olacağı və dəyərinin etibarlı şəkildə ölçülə biləcəyi təqdirdə, balans dəyərində uçota alınır. Əvəz edilmiş hissənin balans dəyəri silinir. Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərə gündəlik xidmət xərcləri yarandığı anda gəlir hesabatında əks etdirilir.

**Tədqiqat və inkişaf xərcləri**

Tədqiqat xərcləri yarandıqca xərclərə aid edilir. Fərdi layihə üzrə inkişaf xərcləri Qrup aşağıdakıları nümayiş etdirə bildikdə qeyri-maddi aktiv kimi tanınır:

- Aktivin istifadəyə və ya satışa hazır olması üçün qeyri-maddi aktivin tamamlanmasının texniki mümkünlüyü;
- Onun tamamlamaq niyyəti və aktivdən istifadə etmək və ya satmaq qabiliyyəti və niyyəti;
- Aktivin gələcək iqtisadi faydaları necə yaradacağı;
- Aktivi tamamlamaq üçün resursların mövcudluğu;
- İnkişaf zamanı xərcləri etibarlı şəkildə ölçmək bacarığı.

İnkişaf xərclərinin aktiv kimi ilkin tanınmasından sonra aktiv hər hansı yığılmış amortizasiya və yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyərlə qeydə alınır. Aktivin amortizasiyası inkişaf başa çatdıqdan və aktiv istifadəyə hazır olduqdan sonra başlayır. O, ehtimal olunan gələcək fayda

dövrü ərzində amortizasiya edilir. Amortizasiya satışın maya dəyərində qeyd olunur. İnkişaf dövründə aktiv hər il dəyərsizləşmə üçün yoxlanılır.

**İnvestisiya mülkiyyəti**

İnvestisiya mülkiyyəti, tamamlanmış və tikilməkdə olan əmlak və ya icarə ödənişləri əldə etmək, kapitalın artırılması və ya hər ikisi üçün saxlanılan yenidən qurulan əmlakdan ibarətdir. İcarə şərtləri saxlanılan əmlak, icarə ödənişləri əldə etmək, kapitalın artırılması və ya hər ikisi üçün saxlanıldıqda, fəaliyyəti müddətində satılmaq, istehsal və ya inzibati funksiyalarda istifadə edilmək əvəzinə investisiya mülkiyyəti kimi təsnif edilir.

İnvestisiya mülkiyyətinə aşağıdakıları nümunə göstərmək olar:

- iş fəaliyyəti müddətində qısamüddətli satış üçün deyil, uzunmüddətli kapitalın artırılması üçün saxlanılan torpaq;
- hazırda təyin olunmamış gələcək istifadəyə verilmiş torpaq (Qrup ərazini mülkiyyətində olan əmlak kimi və ya iş fəaliyyəti müddətində qısamüddətli satış üçün istifadə edəcəyini müəyyənləşdirməmişdirsə, ərazi kapitalın artırılması üçün nəzərdə tutulur);
- Qrupa məxsus (və ya qrupun sahib olduğu binaya aid istifadə hüququ olan aktiv) və bir və ya daha çox əməliyyat icarəsi ilə icarəyə verilmiş tikili;
- boş olan, lakin bir və ya daha çox əməliyyat icarəsi ilə icarəyə verilməsi nəzərdə tutulan tikili;
- investisiya mülkiyyəti olaraq istifadə üçün inşa edilən və ya inkişaf etdirilən əmlak.

İnvestisiya mülkiyyəti əməliyyat xərcləri daxil olmaqla, ilkin olaraq, maya dəyəri ilə ölçülür. Əməliyyat xərclərinə köçürmə vergiləri, hüquqi xidmətlər üçün peşəkar xidmət haqları və əmlakı istismar oluna bilməsi üçün lazımi vəziyyətə gətirmək üçün ilkin icarə komissiyaları daxildir. Balans dəyərinə, tanınma meyarlarına cavab verildiyi təqdirdə, mövcud investisiya mülkiyyətinin bir hissəsinin əvəzləşdirmə xərcləri də daxil edilir.

İlkin tanınmadan sonra investisiya mülkiyyəti hesabat tarixindəki bazar şərtlərini əks etdirən ədalətli dəyərlə göstərilir. İnvestisiya mülkiyyətinin ədalətli dəyərindəki dəyişikliklərdən yaranan gəlirlər və ya zərərlər, müvafiq vergi təsiri daxil olmaqla, yarandıqları dövrdə mənfəət və ya zərər hesabatına daxil edilir. Maliyyə hesabatlarının məqsədləri üçün iki dəfə sayılmamaq üçün maliyyə hesabatlarında əks olunan ədalətli dəyər:

- icarə təşviqlərinin yayılması və/və ya minimal icarə ödənişləri nəticəsində yaranan hər hansı hesablanmış gəlirin balans dəyəri ilə azaldılır;
- icarə əsasında saxlanılan investisiya mülkiyyəti halında: maliyyə vəziyyəti hesabatında maliyyə icarəsi öhdəliyi kimi tanınan əsas icarəçi qarşısında öhdəliyin balans dəyəri artmışdır.

İnvestisiya mülkiyyətinə (və ya investisiya mülkiyyətindən) köçürmələr, yalnız istifadəsi üzrə dəyişiklik baş verdiyi təqdirdə, yerinə yetirilir. İnvestisiya mülkiyyətindən sahibkar mülkiyyətinə köçürülmə üçün, sonrakı uçot üzrə şərti dəyər istifadədə olan dəyişiklik tarixinə olan ədalətli dəyərdir.

İnvestisiya mülkiyyəti ya ləğv edildikdə, ya da istifadədən birdəfəlik çıxarıldıqda və xaric edilməsindən gələcək iqtisadi mənfəət gözlənilmədikdə uçotdan çıxarılır. Xalis xaricolma gəlirləri ilə aktivin balans dəyəri arasındakı fərq tanınmanın dayandırılması dövründəki mənfəət və ya zərər hesabatında uçota alınır.

**Əlaqəli təşkilata qoyulan investisiya**

Əlaqəli təşkilat, Qrupun əhəmiyyətli təsirə malik olduğu təşkilatdır. Əhəmiyyətli təsir investisiya obyektinin maliyyə və əməliyyat siyasəti qərarlarında iştirak etmək səlahiyyətidir, lakin bu, siyasətlər üzərində nəzarət və ya birgə nəzarət deyil.

Əhəmiyyətli təsirin müəyyən edilməsində edilən mülahizələr törəmə müəssisələr üzərində nəzarəti müəyyən etmək üçün zəruri olanlara bənzəyir.

Qrupun əlaqəli təşkilata qoyulan investisiyası kapital metodundan istifadə etməklə uçota alınmışdır.

Kapital metoduna əsasən, əlaqəli təşkilata qoyulan investisiya, ilkin olaraq, ilkin dəyərdə tanınır. İnvestisiyaların balans dəyərinə, alış tarixindən etibarən əlaqəli təşkilatın xalis aktivlərində Qrupun payındakı dəyişiklikləri tanımaq üçün düzəliş edilir. Əlaqəli təşkilata aid qudvil investisiyanın balans dəyərinə daxil edilir və ayrıca dəyərsizləşmə üçün yoxlanılmır.

Mənfəət və ya zərər haqqında hesabat əlaqəli təşkilatın əməliyyatlarının nəticələrində Qrupun payını əks etdirir. Həmin investisiyaların digər məcmu gəlirlərində ("DMG") hər hansı dəyişiklik Cəmiyyətin DMG-nin bir hissəsi kimi təqdim olunur. Bundan əlavə, əlaqəli təşkilatın kapitalında bilavasitə tanınan dəyişiklik baş verdikdə, Qrup hər hansı dəyişiklikdə öz payını, müvafiq hallarda, kapitalda dəyişikliklər haqqında hesabatda tanıyır. Qrup və əlaqəli təşkilat arasında əməliyyatlar nəticəsində yaranmış reallaşdırılmamış mənfəət və zərərlər əlaqəli təşkilatda iştirak payı həcmində silinir.

Əlaqəli təşkilatın mənfəət və ya zərərində Qrupun payının məcmusu əməliyyat mənfəətindən kənar mənfəət və ya zərər haqqında hesabatda göstərilir və vergidən sonra mənfəət və ya zərəri və əlaqəli təşkilatın törəmə müəssisələrindəki nəzarət olunmayan payları təmsil edir.

Əlaqəli təşkilatların maliyyə hesabatları Qrupla eyni hesabat dövrü üçün hazırlanır. Zəruri hallarda, uçot siyasətini Qrupun siyasətlərinə uyğunlaşdırmaq üçün düzəlişlər edilir.

Kapital metodunun tətbiqindən sonra Qrup əlaqəli təşkilata qoyulan investisiya üzrə dəyərsizləşmə zərərinin tanınmasının zəruri olub-olmadığını müəyyən edir. Hər bir hesabat tarixində Qrup əlaqəli təşkilata qoyulan investisiyanın dəyərsizləşməsinə dair obyektiv sübutların olub-olmadığını müəyyən edir. Belə sübutlar olduqda, Qrup dəyərsizləşmə məbləğini əlaqəli təşkilatın bərpa edilə bilən dəyəri ilə onun balans dəyəri arasındakı fərq kimi hesablayır və sonra zərəri mənfəət və ya zərər haqqında hesabatda "Əlaqəli təşkilatın mənfəət payı" kimi tanıyır.

Əlaqəli təşkilat üzərində əhəmiyyətli təsir itirildikdə, Qrup hər hansı saxlanılmış investisiyanı ədalətli dəyəri ilə ölçür və tanıyır. Əhəmiyyətli təsirin itirilməsi zamanı əlaqəli təşkilatın balans dəyəri ilə saxlanılan investisiyanın ədalətli dəyəri və xaric olunmadan əldə olunan gəlir arasında hər hansı fərq mənfəət və ya zərərdə tanınır.

**Nizamnamə kapitalının hissələri**

40 saylı MUBS-da müəyyənləşdirildiyi kimi, maliyyə əldə edildiyi və ya tikildiyi anda aktivin əldə edilməsi üçün ödənilmiş pul vəsaitləri və ya onların ekvivalentlərinin məbləği və ya digər mülahizənin ədalətli dəyəri və ya mümkün olduğu təqdirdə digər MHBS-lərin spesifik tələblərinə uyğun olaraq ilkin tanınma zamanı həmin aktivə aid edilən məbləğdir, məsələn "Pay Alətləri əsasında Ödəmə" adlı 2 saylı MHBS.

Qrup bu MHBS-ni müəssisənin əldə etdiyi malların və ya xidmətlərin müəyyən hissəsini və ya hamısını müəyyənləşdirə biləcəyindən asılı olmayaraq, paya əsaslanan bütün ödəmə əməliyyatlarının uçotunda tətbiq edəcəkdir:

a. öz payı ilə ödənilmiş paya əsaslanan ödəmə əməliyyatları;
b. nağd hesaba qoyulmuş paya əsaslanan ödəmə əməliyyatları; və
c. müəssisənin mal və ya xidmət aldığı və ya əldə etdiyi əməliyyatlar və razılaşma şərtləri müəssisəyə və ya bu malların və ya xidmətlərin tədarükçüsünə müəssisənin əməliyyatı nağd pulla (və ya digər aktivlərdə) olub-olmamasını seçmək və ya kapital alətləri buraxmaq imkanı verir.

Qrup, paya əsaslanan ödəmə əməliyyatında əldə olunan və ya alınan malları və ya xidmətləri, mallar əldə olunan və ya xidmətlər alınan zaman tanıyacaqdır. Müəssisə, mallar və ya xidmətlər öz payı ilə ödənilmiş paya əsaslanan ödəmə əməliyyatında alındığı təqdirdə müvafiq kapital artımını və ya mallar və ya xidmətlər nağd hesaba qoyulmuş paya əsaslanan ödəmə əməliyyatında əldə edildikdə bir öhdəlik tanımalıdır.

Öz payı ilə ödənilmiş paya əsaslanan ödəmə əməliyyatları üçün, Qrup alınan mal və ya xidmətləri və müvafiq kapitaldakı artımı əgər bu ədalətli dəyər etibarlı şəkildə qiymətləndirilə bilməzsə, birbaşa alınan malların və ya xidmətlərin ədalətli dəyəri ilə ölçməlidir. Müəssisə alınan malların və ya xidmətlərin ədalətli dəyərini etibarlı şəkildə qiymətləndirə bilmirsə, müəssisə onların dəyərini və müvafiq kapital artımını dolayısı ilə verilən kapital alətlərinin ədalətli dəyərinə istinad edərək ölçməlidir.

Mülkiyyətçi tərəfindən istifadə olunan əmlak, malların və ya xidmətlərin istehsalı və ya təchizatı və ya inzibati məqsədlər üçün istifadə üçün (mülkiyyətçi və ya icarəçi tərəfindən istifadə hüququ olan aktiv kimi) saxlanılan əmlakdır. Bəzi hallarda ana müəssisə törəmə müəssisələrinə icarəyə verilmiş və törəmə müəssisələr tərəfindən tutulmuş əmlaka sahibdir. Mülkiyyət, konsolidasiya edilmiş maliyyə hesabatlarında investisiya mülkiyyəti kimi təsnif edilmir, çünki Qrupun nöqteyi-nəzərindən, bu mülk sahibin mülkiyyətindədir.

**Vergilər**

**Təxirə salınmış vergilər**

Təxirə salınmış vergi, maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin balans dəyərləri ilə onların vergi uçotuna uyğun balans dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlərin əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəlikləri, ümumiyyətlə, bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivləri isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin qudvil və mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (müəssisə birləşməsi istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivinin balans dəyəri hər bir hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə, bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Təxirə salınmış vergilər bilavasitə kapitala hesablanmış və ya kapitalda əks etdirilmiş maddələrə aid olduğu hallar istisna olmaqla, məcmu gəlir haqqında hesabatda əks etdirilir.

Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək xalis şəkildə konsolidasiya edilmiş maliyyə hesabatlarında təqdim edilir:

- Qrupun cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edildikdə və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olduqda.

**Əlavə Dəyər Vergisi**

Ödəniləcək ƏDV və iddia olunan əvəzləşdiriləcək ƏDV arasındakı fərq hesabat ayından sonra 20 gün ərzində dövlət büdcəsinə ödənilir. Satış ilə əlaqədar ödəniləcək əlavə dəyər vergisi vergi orqanlarına bu satışların qarşılığında ödəniş alındıqda ödənilir. Əvəzləşdiriləcək ƏDV, bir qayda olaraq, elektron ƏDV hesab-fakturası alındıqdan sonra ödəniləcək ƏDV ilə əvəzləşdirilir. Vergi orqanları ƏDV-nin xalis əsaslarla hesablanmasına icazə verir.

Satış və alış ilə əlaqədar olan ƏDV konsolidasiya edilmiş maliyyə hesabatlarında ümumi məbləğdə uçota alınır və aktiv və öhdəlik kimi ayrıca olaraq açıqlanır. Alınacaq vəsaitlərin dəyərsizləşməsi ilə əlaqədar ehtiyat yaradıldıqda, dəyərsizləşmə zərəri ƏDV daxil olmaqla borcluya aid olan ümumi məbləğin tərkibində uçota alınır.

**Əmlak vergisi**

Əmlakın qalıq dəyərini aşan dəyərində sığortalanması və əmlak vergisinin bazar dəyəri ilə hesablanması halları istisna olmaqla, daimi nümayəndəliyi olan rezident hüquqi şəxslər və qeyri-rezident hüquqi şəxslər üçün vergi tutulan baza onların əsas vəsaitlərinin orta illik qalıq dəyəridir. Bununla belə, hüquqi şəxslərin mülkiyyətində olan əsas vəsaitlərin orta illik qalıq dəyəri 1% nisbətində əmlak vergisinə cəlb olunur. Eyni zamanda, rezident və qeyri-rezident fiziki şəxslərə münasibətdə vergi tutulan baza, əmlak vergisinin dərəcəsinin sahib olduğu aktivin növünə görə dəyişdiyi tikililər və onların hissələri, habelə rezident fiziki şəxslərin su və hava nəqliyyatı vasitələrindən ibarətdir.

Hesabat dövrü təqvim ilinə bərabərdir. Əsas vəsaitlərə sahib olan hüquqi şəxslər vergi bəyannaməsini hesabat dövründən növbəti ilin 31 mart tarixindən gec olmayaraq təqdim etməlidirlər. Əmlak vergisi ödəyicisi hüquqi şəxslər vergiləri hər rübün ikinci ayının 15-nə qədər avans ödənişləri yolu ilə (keçən il əmlak vergisinin 20%-i) yuxarıda qeyd olunan sənəd tarixindən gec olmayaraq son balanslaşdırma ödənişi ilə ödəyirlər.

Azərbaycan Respublikasında həmçinin Qrupun fəaliyyətinə görə hesablanan müxtəlif növ digər vergilər mövcuddur. Bu vergilər konsolidasiya edilmiş məcmu gəlirlər haqqında hesabata daxil edilir.

**Mal-material ehtiyatları**

Mal-material ehtiyatları maya dəyəri və ya xalis satış dəyərinin ən aşağı səviyyəsində uçota alınır. Mal-material ehtiyatlarının dəyəri orta çəkili dəyər prinsipinə əsaslanır və ehtiyatların əldə edilməsinə çəkilən xərcləri, eləcə də istehsal və ya emal xərclərini və bu aktivləri mövcud yerlərinə və vəziyyətinə gətirmək üçün çəkilən digər xərcləri əhatə edir. İstehsal edilmiş ehtiyatlar və tamamlanmamış istehsala münasibətdə isə, maya dəyəri adi iş qabiliyyətinə əsaslanan istehsal xərclərinin müvafiq hissəsini əhatə edir.

Xalis satış dəyəri, təxmini tamamlama və satış xərcləri çıxılmaqla, adi fəaliyyət gedişində ehtimal olunan satış qiymətidir.

**Mal-material mülkiyyəti**

Mal-material mülkiyyəti, icarə və ya kapitalın artırılması üçün saxlanılması və mal-material mülkiyyəti olaraq saxlanılması, maya dəyəri və xalis realizə edilə bilən dəyərin (NRV) ən aşağı hissəsi ilə ölçülməsi əvəzinə adi fəaliyyət gedişində əldə edilmiş və ya satılması üçün hazırlanan əmlakdır.

Xərclərə aşağıdakılar daxildir:

- Torpaq üçün mülkiyyət və icarə hüquqları;
- Tikinti üçün podratçılara ödənilmiş məbləğlər;
- Borc alma xərcləri, planlaşdırma və dizayn xərcləri, sahənin hazırlanması xərcləri, hüquqi xidmətlər üçün peşəkar xidmət haqları, əmlakın köçürülməsi üzrə vergilər, tikinti xərcləri və digər əlaqəli xərclər;
- Satış və ya marketinq agentlərinə daşınmaz əmlak satışına görə ödənilən geri qaytarılmayan komissiyalar ödənildikdə xərclərə aid edilir.

Xalis realizə edilə bilən dəyər, hesabat tarixinə bazar qiymətləri üzrə, adi biznes fəaliyyəti zamanı ehtimal olunan satış qiymətidir və əhəmiyyətlidirsə, tamamlama üçün ehtimal edilən xərclər və satış üçün vacib olan, ehtimal edilən xərclər çıxılmaqla pulun zaman dəyəri üçün diskontlaşdırılmışdır.

Silinmələr üzrə mənfəət və ya zərər hesabatında tanınmış mal-material mülkiyyətinin xərci, satılmış əmlak üzrə yaranmış xüsusi xərclərə, eləcə də satılan əmlakın nisbi ölçüsünə əsasən qeyri-spesifik xərclərin bölüşdürülməsinə istinadən təyin olunur.

**Maliyyə alətləri**

Qrup maliyyə aləti üzrə müqavilə tərəflərindən biri olduqda, maliyyə aktivləri və maliyyə öhdəlikləri onun konsolidasiya edilmiş maliyyə hesabatlarında tanınır. Maliyyə aktivləri və öhdəlikləri, ilkin olaraq, ədalətli dəyərlə ölçülür. Maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin alınması və ya yaranması ilə birbaşa əlaqəli olan əməliyyat xərcləri (mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülən maliyyə aktivləri və maliyyə öhdəliklərindən başqa) əlavə edilir və ya ilkin tanınmada maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin ədalətli dəyərinə müvafiq olaraq əlavə edilir və ya maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin ədalətli dəyərindən müvafiq olaraq çıxılır.

Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə tanınan maliyyə aktivlərinin və ya maliyyə öhdəliklərinin əldə olunmasına birbaşa aid olan əməliyyat xərcləri dərhal mənfəət və ya zərərdə tanınır.

**Maliyyə aktivləri**

Maliyyə aktivlərinin müntəzəm şəkildə satın alınması və ya satılması satış tarixi əsasında tanınır və ya xitam verilir. Bütün tanınmış maliyyə aktivləri sonradan, maliyyə aktivlərinin təsnifatına əsasən, amortizasiya edilmiş dəyərdə və ya ədalətli dəyərdə bütünlüklə ölçülür.

*Maliyyə aktivlərinin təsnifatı*

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan amortizasiya olunmuş dəyərlə ölçülür:

- maliyyə aktivi müqavilə ilə pul vəsaitləri axınının yığılması üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli daxilində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Aşağıdakı şərtlərə cavab verən borc alətləri sonradan digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülür (DMGVƏD):

- maliyyə aktivi müqavilə şərtlərinə uyğun olaraq pul vəsaitləri axınının yığılması və maliyyə aktivlərinin satışı məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən edilmiş tarixlərdə əsas pul vəsaitlərinin və ödənilməmiş əsas məbləğ üzrə faizlərin ödənilməsini nəzərdə tutan pul vəsaitlərinin yaranmasına səbəb olur.

Adətən, bütün digər maliyyə aktivləri sonradan mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərlə ölçülür (MZVƏD).

Yuxarıda göstərilənlərə baxmayaraq, Qrup maliyyə aktivinin ilkin tanınmasında aşağıdakı qəti seçimi/təyinatı həyata keçirə bilər:

- müəyyən meyarlar qarşılanmadıqda, Qrup kapital investisiyası üzrə müvafiq ədalətli dəyərdə dəyişikliyin digər məcmu gəlirdə təqdimatı üçün qəti tədbirlər həyata keçirə bilər; və
- Qrup uçot sistemində uyğunsuzluğu aradan qaldırmaq və ya əhəmiyyətli dərəcədə azaltmaq məqsədilə, amortizasiya edilmiş maya dəyərində və ya DMGVƏD ölçülmə meyarlarına cavab verən borc investisiyasını əks keçid etməmək şərtilə MZVƏD-də təyin edə bilər.

*Amortizasiya olunmuş dəyər və effektiv faiz dərəcəsi metodu*

Effektiv faiz dərəcəsi metodu borc alətinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz gəlirinin müvafiq dövr üzrə bölgüsü üsuludur. Satın alınmış və ya əldə edilmiş kredit üzrə dəyərsizləşməyə məruz qalmış maliyyə aktivlərindən (yəni ilkin tanınma zamanı dəyərsizləşmiş aktivlər) başqa maliyyə aktivləri üzrə effektiv faiz dərəcəsi, ehtimal edilən kredit üzrə dəyərsizləşmə istisna olmaqla borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən ödənilmiş, yaxud alınmış bütün haqlar, ödənişlər, əməliyyat xərcləri və ya mükafatlar) ilkin tanınma anında ümumi balans məbləğinədək diskontlaşdıran dəqiq dərəcədir.

Satın alınmış və ya əldə edilmiş kredit dəyərsizləşməsi üzrə maliyyə aktivləri üçün, kreditlə tənzimlənən effektiv faiz dərəcəsi, gözlənilən gələcək pul vəsaitlərinin hərəkətini, ehtimal olunan kredit zərərləri daxil olmaqla, ilkin tanınma zamanı borc alətinin amortizasiya olunmuş dəyərinə diskontlaşdırılmaqla hesablanır.

Maliyyə aktivinin amortizasiya olunmuş dəyəri ilkin tanımada maliyyə aktivinin əsas ödəniş çıxılmaqla, hər hansı zərər üzrə düzəliş edilməklə həmin ilkin dəyər ilə ümumi dəyər arasındakı fərq üzrə effektiv faiz dərəcəsini istifadə etməklə məcmu amortizasiya əlavə olunmaqla, maliyyə aktivinin ölçüldüyü dəyərdir. Maliyyə aktivinin ümumi balans dəyəri hər hansı bir zərər öhdəliyinə düzəliş edilməzdən əvvəl maliyyə aktivinin amortizasiya olunmuş dəyəri hesab olunur.

Faiz gəliri daha sonra amortizasiya edilmiş dəyərdə və DMGVƏD ilə qiymətləndirilən borc alətlərinin effektiv faiz metodundan istifadə edilməklə tanınır. Satın alınmış və ya əldə edilmiş kredit dəyərsizləşməsi üzrə yaranmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivləri üçün, faiz gəliri sonradan kredit itkisinə məruz qalmış maliyyə aktivləri istisna olmaqla, maliyyə aktivinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır. Sonradan kredit dəyərsizləşməsi üzrə yaranmış maliyyə aktivləri üçün faiz gəlirləri effektiv faiz dərəcəsini maliyyə aktivinin amortizasiya olunmuş dəyərinə tətbiq etməklə tanınır. Əgər sonrakı hesabat dövrlərində kredit zərərinə məruz qalmış maliyyə aləti üzrə kredit riski maliyyə aktivinin artıq kredit zərərinə məruz qalmamasına səbəb olursa, faiz gəlirləri effektiv faiz dərəcəsini maliyyə aktivinin ümumi balans dəyərinə tətbiq etməklə tanınır.

Qrupun maliyyə aktivlərinin əksəriyyəti daha sonra amortizasiya edilmiş dəyərlə ölçülmüş maliyyə aktivləri kimi təsnif edilmişdir. Qrupun maliyyə öhdəlikləri daha sonra amortizasiya olunmuş dəyərlə ölçülmüş maliyyə öhdəlikləri kimi təsnif edilmişdir. Qrup mənfəət və zərər vasitəsilə ədalətli dəyərlə ölçülmüş hər hansı maliyyə öhdəliklərinin təsnifatını seçmir.

*Maliyyə aktivlərinin dəyərsizləşməsi*

Qrup ehtimal olunan kredit zərəri modelini amortizasiya edilmiş dəyərlə və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə ölçülmüş maliyyə aktivlərinə tətbiq edir.

İlkin tanınmadan sonra maliyyə aktivi üzrə kredit riski əhəmiyyətli dərəcədə artdıqda, bu maliyyə aktivi üçün ehtimal olunan kredit zərəri üzrə ehtiyat ömürlük ehtimal olunan kredit zərərinə bərabər dəyərdə ölçülür.

Əgər hesabat tarixində maliyyə aktivi üzrə kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmamışdırsa, bu maliyyə aktivi üçün ehtimal edilən kredit zərəri (sadələşdirilmiş yanaşmanın seçildiyi debitor borcları və digər alınacaq vəsaitlər istisna olmaqla) 12 aylıq ehtimal edilən kredit zərərlərinə bərabər dəyərdə ölçülür. Debitor borcları və alınacaq digər vəsaitlər üçün əhəmiyyətli bir maliyyələşdirmə komponentinin olub-olmamasından asılı olmayaraq, ömürlük ehtimal olunan kredit zərəri əsasında ölçmə tətbiq olunur.

Qrup ehtimal olunan kredit zərərini qiymətləndirmək üçün daxili modeldən istifadə edir. Model 9 saylı MHBS-ə uyğun olaraq tərtib edilmiş və qarşı tərəflərin kredit risklərinin qiymətləndirilməsi üçün maliyyə sisteminin xüsusiyyətlərini nəzərə alaraq, qarşı tərəflərə hesab sistemini təyin etməklə hazırlanmışdır. Təyin edilmiş bal (reytinq) fərdi şəkildə hesablanmış Defolt Ehtimalıdır (DE). Aktivin bir bal qrupundan daha aşağı bal qrupuna keçməsi digər meyarlar arasında kredit riskinin əhəmiyyətli artımı hesab olunur.

**Ədalətli dəyərin ölçülməsi**

Ədalətli dəyər ölçülmə tarixində bazar iştirakçıları arasında intizamlı əməliyyatda aktivi satmaq üçün qəbul edilmiş və ya öhdəliyi ötürmək üçün ödəniləcək qiymətdir. Ədalətli dəyərin ölçülməsinə əsasən, aktivin satılması və ya öhdəliyin ötürülməsi üzrə əməliyyat:

- aktiv və ya öhdəlik üçün əsas bazarda; və ya
- əsas bazarın yoxluğu şəraitində aktiv və ya öhdəlik üçün ən əlverişli bazarda baş verir.

Əsas bazar və ya ən əlverişli bazar Qrup tərəfindən əlçatan olmalıdır. Aktiv və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçılarının öz iqtisadi maraqlarına uyğun hərəkət etdiklərini nəzərə alaraq aktiv və ya öhdəliklərin ədalətli dəyərini müəyyənləşdirərkən bazar iştirakçılarının aktiv və ya öhdəliyin ölçülməsində istifadə etdikləri mülahizələrdən istifadə edilir. Qeyri-maliyyə aktivlərinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının aktivin ən çox və ən yaxşı istifadə tətbiqindən yararlanmaqla ondan istifadə etmək və ya başqa bazar iştirakçısına satmaq yolu ilə iqtisadi mənfəəti artırmaq bacarığı nəzərə alınır.

Qrup həmin şəraitdə müvafiq olan və ədalətli dəyərin ölçülməsi üçün mövcud olan məlumatlar üzrə müvafiq müşahidə edilən gəlirlərin istifadəsini artıran və müşahidə edilə bilməyən gəlirlərin istifadəsini azaldan qiymətləndirmə üsullarından istifadə edir.

Ədalətli dəyəri ölçülən və maliyyə hesabatında açıqlanmış bütün aktiv və öhdəliklər aşağıda təsvir edilmiş və bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün mühüm olan ən aşağı səviyyədə məlumatlara əsaslanmış ədalətli dəyər iyerarxiyasında təsnifləşdirilir:

- 1-ci Səviyyə – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- 2-ci Səviyyə – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli məlumatın birbaşa və ya dolayısı ilə müşahidə edilə biləcəyi qiymətləndirmə üsulları;
- 3-cü Səviyyə – ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli məlumatın müşahidə oluna bilmədiyi qiymətləndirmə üsulları.

Maliyyə hesabatlarında dövrü əsasda tanınmış aktivlər və öhdəliklər üzrə Qrup hər hesabat dövrünün sonunda yenidən təyin edilmiş təsnifatla (bütövlükdə ədalətli dəyərin ölçülməsi üçün zəruri olan ən aşağı səviyyəli məlumata əsaslanmış) iyerarxiyada səviyyələr arasında köçürmələrin olub-olmamasını müəyyən edir.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Qrup yalnız aktiv üzrə pul daxil olmaları ilə bağlı müqavilə hüquqlarının vaxtı bitdikdə, yaxud maliyyə aktivini və aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün risk və imtiyazları əsas etibarilə digər müəssisəyə ötürdükdə maliyyə aktivinin tanınmasını dayandırır.

**Maliyyə öhdəlikləri və kapital**

*Borc və ya kapital olaraq təsnifləşdirmə*

Borc və kapital alətləri müqavilə razılaşmalarının məzmununa və maliyyə öhdəliyi ilə kapital alətinin təriflərinə uyğun olaraq ya maliyyə öhdəliyi, ya da kapital kimi təsnif edilir.

*Kapital alətləri*

Kapital aləti müəssisənin bütün öhdəlikləri çıxıldıqdan sonra onun aktivlərində qalan payı sübut edən istənilən bir müqavilədir. Qrup tərəfindən buraxılan kapital alətləri birbaşa buraxılma xərcləri çıxılmaqla əldə edilən vəsaitlərin cəmi məbləğində tanınır.

Qrupun öz kapital alətlərini satın alması birbaşa olaraq kapital bölümündə tanınır və çıxılır. Qrupun öz kapital alətlərini satın alması, satması, buraxması və ya ləğv etməsi ilə bağlı yaranmış mənfəət və zərər məbləğləri mənfəət və zərər hesablarında tanınmamışdır.

*Maliyyə öhdəlikləri*

Bütün maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə və ya MZVƏD ilə ölçülür.

Maliyyə öhdəlikləri (i) biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olduqda, (ii) ticarət və ya (iii) MZVƏD üçün nəzərdə tutulduğu halda MZVƏD üzrə təsnif edilir.

(i) Biznesin birləşməsi zamanı alıcının şərti mükafatı olmayan, (ii) ticarət və ya (iii) MZVƏD üzrə təsnif edilməyən maliyyə öhdəlikləri sonradan effektiv faiz dərəcəsi metodundan istifadə edərək amortizasiya olunmuş dəyərdə ölçülür. Effektiv faiz metodu maliyyə öhdəliyinin amortizasiya olunmuş dəyərinin hesablanması və faiz xərcinin müvafiq dövr üzrə bölüşdürülməsi üsuludur. Effektiv faiz dərəcəsi borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən məntəqələrdə ödənilmiş, yaxud alınmış bütün haqlar, əməliyyat xərcləri və digər mükafat yaxud endirimlər) ilkin tanınma anında xalis balans məbləğinədək dəqiqliklə diskontlaşdıran dərəcədir.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Qrup maliyyə öhdəliyini konsolidasiya edilmiş maliyyə hesabatlarından (və ya maliyyə öhdəliyinin bir hissəsini) yalnız bu öhdəlik ləğv edildiyi halda, məsələn müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə və ya ləğv olunduqda və ya müddəti başa çatdığı zaman çıxarır.

Əsaslı şərtlərlə borc alətləri üzrə mövcud debitor və kreditor arasında mübadilə aparılması halları ilkin maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi nəzərə alınır. Eynilə, mövcud maliyyə öhdəliyinin və ya onun bir hissəsinin (debitorun maliyyə çətinlikləri ilə əlaqəli olmasından asılı olmayaraq) şərtlərinin əhəmiyyətli şəkildə dəyişdirilməsi, ilkin maliyyə öhdəliyinin ləğv edilməsi və yeni maliyyə öhdəliyinin tanınması kimi tanınır.

Yeni yaradılmış maliyyə öhdəliyinin şərtlərinə əsasən, o cümlədən alınmış hər hansı haqlar üzrə nağd ödənilmiş haqlar və ilkin effektiv faiz dərəcəsi ilə diskontlaşdırılmış ödənişlər də daxil olmaqla, pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyəri, ilkin maliyyə öhdəliyi üzrə qalan pul vəsaitlərinin hərəkətinin diskontlaşdırılmış hazırkı dəyərindən ən azı 10 faiz fərqləndikdə, yeni müddəaların əhəmiyyətli dərəcədə fərqli olması hesab edilir. Borc alətlərinin mübadiləsi və ya şərtlərin dəyişdirilməsi öhdəliyin ləğvi olaraq nəzərə alınırsa, çəkilmiş xərclər və ya haqlar ləğvetmə üzrə gəlir və ya zərərin bir hissəsi kimi tanınır. Mübadilə və ya dəyişdirmə öhdəliyin ləğvi olaraq nəzərə alınmırsa, hər hansı xərclər və ya haqlar öhdəliyin balans dəyərində düzəliş olaraq tanınır və dəyişdirilmiş öhdəliyin qalan müddəti ərzində amortizasiya olunur.

**Maliyyə alətlərinin əvəzləşdirilməsi**

Maliyyə aktivləri və öhdəlikləri yalnız aktiv və öhdəliklərin əvəzləşdirilməsi üçün müəyyən edilmiş hüququ olduqda, eləcə də müqavilə üzrə əvəzləşdirməni aparmaq və eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyəti mövcud olduğu hallarda əvəzləşdirilə və xalis məbləğ konsolidasiya edilmiş maliyyə hesabatlarında əks etdirilə bilər.

**Debitor borcları və digər alınacaq vəsaitlər**

Debitor borcları və digər alınacaq vəsaitlər gözlənilən pul axınlarını effektiv faiz dərəcəsi üsulundan istifadə etməklə amortizasiya dəyərində uçota alınır. Qrup debitor borcları və digər alınacaq vəsaitlər üçün ehtimal olunan kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir. Ehtiyat dərəcələri oxşar zərər modellərinə malik olan müxtəlif müştəri seqmentləri üzrə (yəni, coğrafi, məhsul növü, müştəri növü və reytinqi, akkreditiv və kredit sığortasının digər növləri üzrə) qruplarda vaxtı keçmiş günlərə əsaslanır.

Ehtiyat cədvəli ilkin olaraq, Qrupun tarixən müşahidə olunmuş defolt dərəcələrinə əsaslanır. Qrup tarixi kredit zərəri təcrübəsini perspektiv məlumatlarla uyğunlaşdırmaq üçün cədvələ düzəlişlər edir. Məsələn, əgər istehsal sektorunda defolt sayının artmasına gətirib çıxaran proqnozlaşdırılan iqtisadi şərtlər (yəni ümumi daxili məhsul) gələn il ərzində pisləşəcəkdirsə, bu zaman tarixi defolt dərəcələrinə düzəliş edilir. Hər bir hesabat tarixində tarixi müşahidə olunmuş defolt dərəcələri yenilənir və gələcək perspektiv ehtimallar təhlil edilir. Tətbiq olunduğu hallarda Qrup qarşı tərəflərin xarici dərəcələrindən əldə edilmiş defolt dərəcələrinə əsaslanır.

Tarixi müşahidə olunmuş defolt dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və ehtimal olunan kredit zərəri arasında korrelyasiyanın qiymətləndirilməsi əhəmiyyətli dərəcədə təxminlərdən ibarətdir. Ehtimal olunan kredit zərərinin məbləği şəraitdə və proqnozlaşdırılan iqtisadi şərtlərdə dəyişikliklərə həssasdır. Qrupun tarixi kredit zərəri üzrə təcrübəsi və iqtisadi şəraitin proqnozu da gələcəkdə müştərinin faktiki defolt vəziyyətini tam şəkildə əks etdirə bilməz.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə kassada olan pul vəsaitləri, banklarda saxlanılan depozitlər və ilkin ödəniş müddəti üç ay və ya daha az olan digər qısamüddətli yüksək likvidli investisiyalar daxildir. Pul vəsaitləri və onların ekvivalentləri AD-də uçota alınır, çünki (i) onlar müqavilə üzrə pul vəsaitləri hərəkətinin yığılması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təmsil edir və (ii) MZVƏD-də təyin olunmur. Müəyyən ölkələrdə təminat qanunvericiliyi kimi yalnız qanunvericiliklə nəzərdə tutulmuş xüsusiyyətlər, qanunvericilik sonradan dəyişdirilsə belə, bu xüsusiyyətin tətbiq olunacağı müqavilə şərtlərinə daxil edilmədiyi halda, YƏMFÖ testinə təsir göstərmir.

**Təchizatçılara verilmiş avanslar**

Təchizatçılara verilmiş avanslar dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla ilkin dəyərlə tanınır. Avanslarla bağlı mal və ya xidmətlərin bir ildən sonra əldə ediləcəyi ehtimal olunduqda və ya ilkin tanınma zamanı aktivlə bağlı avanslar uzunmüddətli aktiv olaraq təsnif edildikdə bu avanslar uzunmüddətli aktiv olaraq təsnif edilir.

Aktivlərin əldə olunması üçün ödənilmiş avanslar Qrup aktivin nəzarətini ələ keçirdikdən sonra aktivin balans dəyərinə köçürülür və aktivlə bağlı gələcək iqtisadi səmərələrin Qrupa daxil olacağı ehtimal olunur. Avanslara aid olan mal və ya xidmətlər əldə olunan zaman digər əməliyyatlar üzrə avanslar mənfəət və zərər hesablarına silinir. Avanslarla bağlı aktivlər mal və ya xidmətlərin əldə olunmadığına dair göstərici olduqda, avansların balans dəyəri müvafiq olaraq silinir və müvafiq dəyərsizləşmə zərəri mənfəət və zərər haqqında hesabatda qeydə alınır.

**Ehtiyatlar**

Ehtiyatlar Cəmiyyətin keçmişdə baş vermiş hadisənin nəticəsi olaraq hazırda öhdəliyi (hüquqi yaxud konstruktiv) olduqda tanınır; bu zaman Cəmiyyətdən öhdəliyin yerinə yetirilməsinin tələb olunacağı ehtimal edilir və öhdəlik məbləği etibarlı şəkildə hesablana bilir.

Ehtiyat kimi tanınan məbləğ öhdəliklə bağlı risk və qeyri-müəyyənlikləri nəzərə almaqla hesabat dövrünün sonunda cari öhdəliyin yerinə yetirilməsi ilə əlaqədar tələb olunan məbləğlərin ən düzgün şəkildə hesablanmasıdır.

Ehtiyat hazırkı öhdəliyin yerinə yetirilməsi üçün hesablanmış pul vəsaitlərinə istinad etməklə ölçülərsə, onun balans dəyəri (pulun zaman dəyərinin təsiri əhəmiyyətli olduqda) həmin pul vəsaitlərinin cari dəyərinə bərabər olur.

Ehtiyatların ödənilməsi üçün tələb olunan iqtisadi faydaların bir hissəsinin və ya hamısının üçüncü tərəfdən geri alınması gözlənildikdə, kompensasiyanın alınacağına faktiki olaraq əmin olduqda və debitor borcunun məbləği etibarlı şəkildə ölçülə bildikdə, debitor borc aktiv kimi tanınır.

**ƏDV depozit hesabı**

Əlavə Dəyər Vergisi ("ƏDV") depozit hesabı sistemi Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən ƏDV ilə bağlı neqativ halların qarşısını almaq məqsədilə 2008-ci ildən etibarən tətbiq olunan sistemdir. 1 yanvar 2008-ci il tarixindən Vergilər Məcəlləsinə edilmiş düzəlişlərə əsasən, ƏDV ödənişinin məbləği təqdim olunmuş ƏDV hesab-fakturalarına uyğun olaraq vergi ödəyicisinin ƏDV depozit hesabında aparılan əməliyyatlar çərçivəsində bu hesaba ödənilmiş olan vergi məbləğidir.

Bu modulun köməkliyi ilə, vergi ödəyicisi ƏDV hesab-fakturasında qeyd olunmuş ƏDV məbləğini digər vergi ödəyicisinin ƏDV depozit hesabına ödəyir. Eyni zamanda Dövlət büdcəsi qarşısında bütün növ vergi öhdəlikləri və gömrük komitəsinə ödənilməli olan idxal əməliyyatları ilə bağlı ƏDV məbləğləri vergi ödəyicisi tərəfindən ƏDV depozit hesabı vasitəsilə ödənilə bilər. Ödənilmiş məbləğlər barəsində məlumat vergi orqanı tərəfindən Baş Dövlət Xəzinədarlığına və daha sonra Azərbaycan Respublikası Mərkəzi Bankına ("ARMB") ötürülür. Mərkəzi Bank Baş Dövlət Xəzinədarlığı ("BDX") tərəfindən təqdim olunmuş məlumat əsasında məbləğlərin müvafiq yerli xəzinədarlıq orqanlarına köçürülməsini təmin edir. Vergilər Nazirliyi təqdim olunmuş məlumatda qeyd edilən məbləğlərin vergi ödəyicisinin şəxsi faylına daxil edilməsini təmin edir. Cari sistem Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Avtomatlaşdırılmış Vergi Məlumatı Sisteminə qoşulmuşdur. Eyni zamanda BDX-də və ARMB-də elektron məlumat mübadiləsi təşkil olunmuşdur.

ƏDV depozit hesabının tətbiqi ödənişlərə və qaytarılan ƏDV məbləğlərinə vaxtlı-vaxtında nəzarət etmək imkanı verir. Vergi borcları olan vergi ödəyiciləri bu məbləğləri yalnız dövlət büdcəsinə köçürə bilər. Vergi ödəyiciləri banklara getmədən dövlət büdcəsinə, digər vergi ödəyicilərinin ƏDV depozit hesabına və gömrük komitəsinə depozit hesabı vasitəsilə ödəniş edə bilərlər. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti xüsusi proqram təminatından istifadə etməklə depozit hesabıyla aparılan bütün əməliyyatlara avtomatik şəkildə nəzarət edir.

ƏDV depozit hesabındakı vəsaitlərdən istifadə məhdudlaşdırılmışdır və yalnız ƏDV və digər müvafiq vergilərlə bağlı əməliyyatlar üçün istifadə edilə bilər.

**Təxirə salınmış gəlirlər**

**Hökumət qrantları**

Hökumət qrantları, qrantın alınacağına və əlavə edilmiş bütün şərtlərə əməl ediləcəyinə dair əsaslı əminlik olduqda tanınır. Qrant xərc maddəsinə aid olduqda, kompensasiya edilməsi nəzərdə tutulan müvafiq xərclərin xərcləndiyi dövrlər ərzində sistematik şəkildə gəlir olaraq tanınır. Qrant bir aktivə aid olduqda, əlaqədar aktivin ehtimal olunan faydalı istifadə müddəti ərzində bərabər miqdarda gəlir kimi uçota alınır. Qrup, qeyri-maddi aktivlərin qrantlarını aldıqda, aktiv və qrant nominal məbləğlərdə uçota alınır və əsas aktivin faydalarının istehlakı formasına əsasən, aktivin ehtimal olunan faydalı ömrü ərzində mənfəət və ya zərər haqqında hesabatda illik bərabər hissələrlə uçota alınır.

**İcarələr**

İcarə nəzərdən keçirildiyi müddət ərzində aktivdən (əsas aktivdən) istifadə hüququ üzrə müqavilə və ya müqavilnin bir hissəsidir. Müştərinin müəyyən edilməmiş aktivin istifadəsi nəticəsində yaranan iqtisadi mənfəəti əldə etmək hüququ və həmin aktivin istifadəsinə rəhbərlik etmək hüququ varsa, nəzarətin davam etdiyi hesab edilir.

İcarə öhdəliyi başladıqda, Qrup qısamüddətli, eləcə də aşağı dəyərli icarə öhdəliyindən başqa bütün icarələr üçün aktiv və icarə öhdəliyinin istifadə hüququnu tanıyır.

Aktivdən istifadə hüququ əvvəlcə maya dəyəri ilə ölçülür və sonradan yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə ölçülür.

İcarə öhdəliyi əvvəlcə gələcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülür. Sonradan icarə öhdəlikləri faiz və icarə ödənişləri üçün düzəldilir.

**Borc öhdəlikləri**

Bütün kreditlər və borc öhdəlikləri ilkin olaraq birbaşa aid edilə bilən əməliyyat xərcləri çıxılmaqla alınan məbləğin ədalətli dəyəri ilə tanınır. İlkin tanınmadan sonra faiz yaradan kreditlər və borc öhdəlikləri effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə ölçülür. Gəlir və zərərlər öhdəliklərin tanınması dayandırıldıqda, eləcə də amortizasiya prosesi zamanı məcmu gəlir haqqında hesabatda tanınır.

**Kreditor borcları və digər ödəniləcək vəsaitlər**

Kreditor borcları və digər ödəniləcək vəsaitlər qarşı tərəf müqavilədə nəzərdə tutulmuş öhdəliklərini icra etdiyi zaman tanınır və effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərdə uçota alınır.

**Nizamnamə kapitalı**

Nizamnamə kapitalı Cəmiyyətin səhmdarının qoyduğu kapitalın məbləğidir. Cəmiyyət nizamnamə kapitalını səhmdarın təsdiqi çərçivəsində artıra və ya azalda bilər.

Təsisçilərin nizamnamə kapitalından başqa vəsait qoyması və ya geri çəkməsi digər kapitalda tanınır.

Adi səhmlər üzrə dividendlər onların elan edildiyi dövrdə azalma kimi kapitalda tanınır. Hesabat tarixindən sonra elan edilmiş dividendlər "Hesabat tarixindən sonrakı hadisələr" adlı 10 saylı MUBS-a uyğun olaraq sonrakı hadisə kimi nəzərə alınır və müvafiq olaraq açıqlanır.

**Müştərilərlə bağlanmış müqavilələr üzrə gəlirlər**

15 saylı MHBS, müəssisələrə müştərilər ilə bağlanmış müqavilələrdən gəlirlərin uçotu üzrə vahid məcmu modeli tətbiq edir.

15 saylı MHBS-in əsas prinsipinə görə, Qrup vəd edilmiş malların və ya xidmətlərin müştərilərə köçürülməsini əks etdirmək üçün gəliri Qrupun həmin mal və ya xidmətlər müqabilində hüquq əldə etməyi gözlədiyini əks etdirən məbləğdə tanımalıdır. Standart xüsusilə gəlirlərin tanınması üçün beşaddımlı bir yanaşma təqdim edir:

- 1-ci Addım: Müştərilərlə bağlanmış müqavilə və ya müqavilələrin müəyyən edilməsi;
- 2-ci Addım: Müqavilə öhdəliklərinin müəyyən edilməsi;
- 3-cü Addım: Əməliyyat qiymətinin müəyyən edilməsi;
- 4-cü Addım: Müqavilə öhdəlikləri üzrə əməliyyat qiymətlərinin ayrılması;
- 5-ci Addım: Müəssisənin müqavilə öhdəliklərini yerinə yetirdiyi halda, (yetirdiyi zaman) gəlirin tanınması.

15 saylı MHBS-ə əsasən, öhdəliyin icrası yerinə yetirildiyi halda (yetirildiyi zaman), yəni müəyyən öhdəliyin icrasında əsas götürülən mallara və ya xidmətlərə "nəzarət" müştəriyə ötürüldükdə, müəssisə gəliri tanıyır.

**İşçilərə sərf olunan xərclər**

Əmək haqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Qrupun işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

**Xarici valyuta əməliyyatları**

Qrupun funksional valyutası Azərbaycan Manatıdır ("AZN").

Monetar aktiv və öhdəliklər ARMB-nin müvafiq hesabat tarixinə qüvvədə olan, rəsmi valyuta məzənnəsinə əsasən AZN-ə çevrilir. Xarici valyuta əməliyyatları əməliyyat tarixində mövcud olan məzənnə ilə uçota alınır.

İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızlarının ədalətli dəyərinə təsiri ədalətli dəyər üzrə gəlir və ya xərclərin bir hissəsi kimi qeydə alınır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı Qrup aşağıda göstərilən valyuta məzənnələrindən istifadə etmişdir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| 1 ABŞ dolları | 1.7000 AZN | 1.7000 AZN |
| 1 Avro | 1.8114 AZN | 1.9265 AZN |

**Şərti öhdəliklər və aktivlər**

Şərti öhdəliklər konsolidasiya edilmiş maliyyə hesabatlarında tanınmır. Onlar iqtisadi cəhətdən səmərəli resursların məxarici ehtimalı olmayanadək konsolidasiya edilmiş maliyyə hesabatlarının qeydlərində açıqlanır.

Şərti aktivlər konsolidasiya edilmiş maliyyə hesabatlarında qeyd olunmur, lakin iqtisadi mənfəət əldə edilməsi ehtimalı olduqda konsolidasiya edilmiş maliyyə hesabatında açıqlanır.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Qrupun konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verməsini tələb edir.

Biznes fəaliyyətlərinin qeyri-müəyyənliyi nəticəsində konsolidasiya edilmiş maliyyə hesabatlarında bir çox maddələrin dəqiq qiymətləndirilməsi mümkün olmur və yalnız müəyyən ehtimallar irəli sürülə bilər. Ehtimallar konsolidasiya edilmiş maliyyə hesabatları hazırlanarkən ən son məlumatlara əsaslanan mühakimələri nəzərdə tutur. Gələcək hadisələr haqqında mövcud vəziyyət və ehtimallar Qrupun nəzarətindən kənarda yaranan bazar dəyişiklikləri və ya şəraitə görə dəyişə bilər. Bu cür dəyişikliklər baş verdikləri zaman Qrup tərəfindən edilən təxminlərdə öz əksini tapır.

Ən əhəmiyyətli təxminlər əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin və investisiya mülkiyyətinin faydalı istifadə müddəti, dəyərsizləşməsi və ədalətli dəyəri, investisiya və əməliyyat aktivlərinin təsnifatı, inkişaf xərclərinin tanınması, debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri (EOKZ), mal-material ehtiyatlarının qiymətləndirilməsi, maliyyə alətlərinin ədalətli dəyərinin ölçülməsi, cari vergilər, təxirə salınmış vergi aktivlərinin bərpası, icarə müddəti və artan borc üzrə faiz dərəcəsinin qiymətləndirilməsi, gəlirin tanınması, yenidən təsnifatlar ilə bağlıdır. Faktiki nəticələr həmin təxminlərdən fərqli ola bilər.

**Mülahizələr**

Qrupun mühasibat uçotu siyasətinin tətbiq edilməsi prosesində rəhbərlik konsolidasiya edilmiş maliyyə hesabatlarında tanınmış məbləğlər üzrə nəzərə alınmış əhəmiyyətli təsiri olan təxminlərdən başqa aşağıdakı mülahizələri edir.

**Əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin faydalı istifadə müddəti**

Qrup hər maliyyə ilinin sonunda əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin qalan faydalı istifadə müddətini qiymətləndirir. Bu aktivlərin nəzərdə tutulan faydalı ömürləri ötən ilin qiymətləndirilməsindən fərqli olduqda, "Uçot Siyasətləri, Uçot Qiymətləndirmələrində Dəyişikliklər və Xətalar" adlı 8 saylı MUBS standartına müvafiq olaraq uçot təxminlərində dəyişiklik olaraq uçota alınır. Belə təxminlərin əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin balans dəyərlərinin məbləğləri və mənfəət və zərər hesablarında tanınmış köhnəlmə və amortizasiya üzrə əhəmiyyətli təsiri olur.

**Əmlak, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin, investisiya mülkiyyətinin və digər qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi**

Qrup hər bir hesabat tarixinə aktivlərin dəyərsizləşməsinə dair ehtimalın olmasını qiymətləndirir. Əgər hər hansı belə ehtimal mövcuddursa, Qrup aktivin bərpa edilə bilən məbləğini təxmin edir. Aktivin bərpa edilə bilən məbləği onun digər aktivlərdən müstəqil şəkildə pul vəsaitləri yaratmaq qabiliyyətinin olduğu hallar istisna olmaqla, aktivin və ya pul vəsaiti yaradan vahidin ən yüksək ədalətli dəyərindən satış xərcləri və istifadə dəyəri çıxılması nəticəsində yaranan dəyərə bərabərdir. Aktivin balans dəyəri onun bərpa edilə bilən məbləğindən artıq olduqda aktiv dəyərsizləşmiş hesab edilir və onun balans dəyəri müvafiq olaraq azaldılır. İstifadə dəyərini qiymətləndirərkən, pulun zaman dəyəri və aktivə xas olan risklərin cari bazar qiymətləndirməsini əks etdirən vergidən öncə diskont dərəcəsi istifadə edilərək ehtimal olunan gələcək pul axınları mövcud dəyərinə diskontlaşdırılır. Satış xərcləri çıxılmaqla ədalətli dəyəri müəyyən edərkən, cari bazar əməliyyatları (mövcud olduqda) nəzərə alınır. Bu cür əməliyyatlar müəyyən edilə bilmədikdə, müvafiq qiymətləndirmə modeli istifadə olunur.

Qrup dəyərsizləşmə üzrə hesablamanı, fərdi aktivin ayrıldığı Qrupun hər bir nağd pul yaradan vahidi (CGU) üçün ayrı-ayrılıqda hazırlanan ətraflı büdcələrə və proqnoz hesablamalarına əsaslanır. Bu büdcələr və proqnoz hesablamaları, ümumilikdə, 5 illik dövrü əhatə edir. Daha uzun dövrlər üçün, uzunmüddətli artım sürəti müəyyənləşdirilir və beşinci ildən sonra gələcək pul vəsaitlərinin hərəkəti üçün tətbiq olunur. Rəhbərlik bazara indeksləşdirilən qiymətlərin gələcək artımları ilə biznesin gedişində dəyişən qiyməti nəzərdə tutan əmtəə qiymətləri ehtimalı üçün artırılmış qiymət vəziyyətindən istifadə edir.

Qrup 31 dekabr 2022 və 2021-ci il tarixlərinə əmlak, tikili və avadanlıqlar, qeyri-maddi aktivlər üzrə investisiya mülkiyyəti və digər qeyri-maliyyə aktivləri üzrə dəyərsizləşmə zərərini tanımamışdır.

**Əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin və investisiya mülkiyyətinin ədalətli dəyəri**

*İlkin tanınma*

Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər və investisiya mülkiyyəti, bu aktivlərin Qrupa təhvil verildiyi tarixə hesablanmış xərclər kimi ədalətli dəyərlə ölçülmüşdür.

Qrup 31 dekabr 2022 və 2021-ci il tarixlərinə investisiya mülkiyyətinin ədalətli dəyərində dəyişiklik tanımamışdır.

**Mal-material mülkiyyətinin qiymətləndirilməsi**

Mal-material mülkiyyəti maya dəyəri və ya xalis satış dəyərindən daha az olan məbləğdə qiymətləndirilir. Qrup uyğun olduqda köhnəlmiş və azhərəkətli mal-material mülkiyyətinin balans dəyərini xalis satış dəyərinə qədər azaldaraq uçota alır. Mal-material mülkiyyətinin silinməsi üzrə yaranan faktiki dəyər xalis satış dəyərindən fərqli ola bilər; istənilən bu cür fərqin gələcək əməliyyat nəticələri üzərində əhəmiyyətli təsiri ola bilər. Azhərəkətli və köhnəlmiş mal-material ehtiyatları üzrə ehtiyat Qrup tərəfindən mal-material ehtiyatlarının qiymətləndirilməsi əsasında hesablanır. Mal-material ehtiyatlarının silinməsi Qrup Rəhbərliyi tərəfindən ilin sonunda ehtiyatların köhnəlməsi və faydalılığının qiymətləndirilməsi əsasında baş verir.

**Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri**

Qrup debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir. Ehtiyat dərəcələri oxşar zərər nümunələrinə malik olan müxtəlif müştəri seqmentlərinin qruplaşdırılması üçün vaxtı keçmiş günlərə əsaslanır (məsələn, coğrafiya, məhsul növü, müştəri növü və reytinqi, akkreditivlər və kredit sığortasının digər formaları ilə əhatə dairəsi).

Ehtiyat cədvəli, ilkin olaraq, Qrupun tarixən müşahidə edilmiş defolt dərəcələrinə əsaslanır. Qrup keçmiş kredit zərəri təcrübəsini gələcəyə hesablanmış məlumatlarla tənzimləmək üçün cədvəli kalibrləyəcək. Məsələn, proqnozlaşdırılan iqtisadi şərtlərin (yəni, ümumi daxili məhsulun) növbəti il ərzində pisləşməsi gözlənilirsə və bu, istehsal sektorunda defoltların sayının artmasına səbəb ola bilərsə, tarixi defolt dərəcələrinə düzəlişlər edilir. Hər hesabat tarixində tarixən müşahidə edilmiş defolt dərəcələri yenilənir və perspektiv təxminlərdəki dəyişikliklər təhlil edilir. Müvafiq hallarda, Qrup qarşı tərəflərin xarici tariflərindən əldə edilən defolt dərəcələrinə əsaslanır.

Tarixən müşahidə edilmiş defolt dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və EOKZ arasında korrelyasiyanın qiymətləndirilməsi əhəmiyyətli bir təxmindir. EOKZ-nin məbləği şəraitdəki dəyişikliklərə və proqnozlaşdırılan iqtisadi şəraitə həssasdır. Qrupun tarixi kredit zərəri təcrübəsi və iqtisadi şərtlərin proqnozu da müştərinin gələcəkdə faktiki defoltunu təmsil edə bilməz.

Qrupun rəhbərliyi debitor borcları və digər alınacaq vəsaitlər üzrə üzrə heç bir EOKZ-nin tanınmasının tələb olunmadığı barədə qərar qəbul etmişdir.

**Maliyyə alətlərinin ədalətli dəyərinin ölçülməsi**

Qrupun bir sıra mühasibat uçotu siyasəti və açıqlamaları, maliyyə və qeyri-maliyyə aktivləri və öhdəlikləri üçün ədalətli dəyərin ölçülməsini tələb edir.

Qrup ədalətli dəyərin ölçülməsi ilə əlaqədar olaraq müəyyən nəzarət çərçivəsinə malikdir.

Aktiv və ya öhdəliyin ədalətli dəyərini ölçərkən, Qrup mümkün qədər bazarda müşahidə edilə bilən məlumatlardan istifadə edir. Ədalətli dəyərlər aşağıdakı qiymətləndirmə üsullarında istifadə olunan giriş məlumatlarına əsaslanaraq ədalətli dəyər iyerarxiyasında müxtəlif səviyyələrdə təsnifləşdirilir:

- *1-ci Səviyyə* – fəal bazarlarda oxşar aktivlər və öhdəliklər üzrə təyin edilmiş (nizamlanmamış) bazar qiymətləri;
- *2-ci Səviyyə* – aktiv və ya öhdəlik üzrə birbaşa (yəni qiymətlər) və ya dolayı yolla (yəni qiymətlərdən əldə edilir) müqayisə edilə bilən 1-ci Səviyyədə daxil edilmiş qiymətlərdən başqa daxilolmalar;
- *3-cü Səviyyə* – müşahidə edilə bilən bazar məlumatlarına əsaslanmayan aktiv və ya öhdəlik üçün giriş məlumatları (müşahidə olunmayan giriş məlumatları).

Bir aktivin və ya öhdəliyin ədalətli dəyərini ölçmək üçün istifadə edilən giriş məlumatları, ədalətli dəyər iyerarxiyasının müxtəlif səviyyələrində təsnif edilə bilərsə, ədalətli dəyər iyerarxiyasının eyni dərəcəsi bütün ölçmə üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş kimi ədalətli dəyərin ölçülməsi bütünlükdə təsnif edilir.

**Cari vergilər**

Azərbaycanda vergi, valyuta və gömrük qanunvericiliyi tez-tez baş verən şərhlərə və dəyişiklərə məruz qalır. Bundan başqa, Qrupun əməliyyatlarına və fəaliyyətinə tətbiq olunan vergi qanunvericiliyinin vergi orqanları tərəfindən şərhi, Qrupun rəhbərliyinin şərhi ilə uyğun gəlməyə bilər. Nəticədə, vergi orqanları əməliyyatları yenidən təsnif edə bilər və Qrupun işçiləri əhəmiyyətli dərəcədə əlavə vergi, cərimə və faiz ödəmələrinə məruz qala bilərlər.

Vergi və gömrük qurumları müəssisənin fəaliyyətinin nəzərdən keçiriləcəyi ildən əvvəlki üç il ərzində vergi öhdəliklərini yoxlaya bilərlər. Qrupun fəaliyyətinin nəzərdən keçirilməsi müəyyən şərtlər çərçivəsində daha uzun müddətləri də əhatə edə bilər. 31 dekabr 2022-ci il tarixinə rəhbərlik hesab edir ki, onların müvafiq qanunvericiliklə bağlı şərhləri uyğundur və ehtimal olunur ki, Qrupun vergi, valyuta və gömrüklə bağlı cari vəziyyəti dəyişməyəcək.

**Təxirə salınmış vergi aktivlərinin bərpası**

Təxirə salınmış vergi aktivləri istifadə olunmayan vergi zərərləri üçün zərərlərin istifadə oluna biləcəyi vergiyə cəlb olunan mənfəətin olması ehtimalı daxilində tanınır. Gələcək vergi planlaşdırma strategiyaları ilə birlikdə ehtimal olunan vaxt və gələcək vergiyə cəlb olunan mənfəət səviyyəsinə əsaslanaraq, təxirə salınmış vergi aktivlərinin məbləğini müəyyənləşdirmək üçün əhəmiyyətli idarəetmə qərarı tələb olunur.
31 dekabr 2022-ci il tarixinə təxirə salınmış vergi aktivi, əsasən, investisiya mülkiyyəti və digər uzunmüddətli aktivlər üçün gələcək vergi zərərləri və ədalətli dəyər dəyişikliyi ilə əlaqədar olmuşdur.

**Gəlirin tanınması**

Xidmətin satışı, göstəriləcək xidmətlərin ümumi sayının bir hissəsi olaraq göstərilən faktiki xidmət əsasında qiymətləndirilən xüsusi əməliyyatın başa çatma mərhələsinə əsasən xidmətlərin göstərildiyi hesabat dövründə tanınır.

Ümumi satışlar ƏDV xaric, lakin endirimlər daxil olmaqla göstərilir. Endirimlər kommersiya şərtlərindən asılı olaraq ixtiyari verilir.

Gəlir alınmış və ya alınacaq avansların ədalətli dəyəri ilə ölçülür

**Yenidən təsnifatlar**

Cari ilin təqdimatı Qrupun maliyyə vəziyyəti haqqında hesabatını, məcmu gəlir haqqında hesabatını və pul vəsaitlərinin hərəkəti haqqında hesabatını daha yaxşı təsvir etdiyinə görə 31 dekabr 2021-ci il tarixinə maliyyə hesabatlarında təqdimata uyğunlaşmaq üçün müəyyən yenidən təsnifatlar aparılmışdır

## 4. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR VƏ QEYRİ-MADDİ AKTİVLƏR

| | Maşınlar və avadanlıqlar | Binalar və bənzər tikililər | Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası | Nəqliyyat vasitələri | Davam etməkdə olan tikililər | Digər | Cəmi | Qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Şərti dəyər olaraq Ədalətli dəyər/ ilkin dəyər** | | | | | | | | | |
| **31 dekabr 2022-ci il** | 199,075 | -- | -- | 6,821 | -- | 32,530 | -- | 20,195 | 258,621 |
| **Yığılmış köhnəlmə və amortizasiya** | | | | | | | | | |
| **31 dekabr 2022-ci il** | (43,799) | -- | -- | (1,705) | -- | (17,912) | -- | (12,663) | 76,079 |
| **Xalis qalıq dəyəri** | | | | | | | | | |
| **31 dekabr 2022-ci il** | 155,276 | -- | -- | 5,116 | -- | 14,618 | -- | 7,532 | 182,542 |

## 5. UZUNMÜDDƏTLİ MALİYYƏ AKTİVLƏRİ

| | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| Kapital qoyuluşları | 7,500 | -- |
| Sair maliyyə aktivləri | 223,270 | 184,570 |
| **Cəmi maliyyə aktivləri** | **230,770** | **184,570** |

## 6. TƏXİRƏ SALINMIŞ VERGİ

Qrup cari mənfəət vergisi öhdəliyini və vergi bazalarını Qrupun fəaliyyət göstərdiyi Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq aktiv və öhdəliklərdə dəyərləndirir və əks etdirir və bu hesablamalar MHBS-dən fərqlənir.

Bəzi xərclərin vergi bazasının hesablanması zamanı nəzərə alınmaması və bəzi gəlirlərin vergiyə tabe tutulmaması nəticəsində Qrupun daimi vergi fərqləri yaranır.

Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərin qalıq dəyəri ilə onların vergi hesabatındakı balans dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir.

## 7. MAL-MATERİAL EHTİYATLARI

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Hazır məhsul | | |
| Xammal | | |
| Mal-material ehtiyatları | 592,268 | 868,500 |
| Ehtiyat hissələri | | |
| Emalda olan məhsullar | | |
| Materiallar və təchizatlar | | |
| Tamamlanmamış istehsal | | |
| Digər | | |
| Çıxılsın: köhnəlmiş mal-material ehtiyatları üzrə yaradılmış ehtiyat | | |
| **Cəmi mal-material ehtiyatları** | **592,268** | **868,500** |

## 8. DEBİTOR BORCLARI VƏ DİGƏR ALINACAQ VƏSAİTLƏR

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Debitor borcları | 135,228 | 364,653 |
| Digər alınacaq vəsaitlər | -- | -- |
| Debitor borcları və digər alınacaq vəsaitlər üzrə ehtimal olunan kredit zərərləri üzrə ehtiyat | -- | -- |
| **Cəmi debitor borcları və digər alınacaq vəsaitlər** | **135,228** | **364,653** |

## 9. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Kassa vəsaitləri | 2,185 | 16,375 |
| Banklardakı hesablaşma hesabları | 8,264 | 132,069 |
| - Azərbaycan manat | 7,069 | 129,062 |
| - Xarici valyuta | 1,195 | 3,007 |
| Banklardakı digər hesablar | 3,952 | 106,662 |
| ƏDV depozit hesabı | 18,183 | -- |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **32,584** | **255,106** |

## 10. DİGƏR CARİ AKTİVLƏR

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Təchizatçılara verilmiş avans ödənişləri | -- | 262,126 |
| Gələcək dövrün xərcləri | -- | 16,346 |
| Əvəzləşdiriləcək ƏDV | -- | -- |
| Digər | 66,429 | 91,675 |
| **Cəmi digər cari aktivlər** | **66,429** | **370,147** |

## 11. VERGİ VƏ SAİR MƏCBURİ ÖDƏNİŞLƏR ÜZRƏ ÖHDƏLİKLƏR

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Vergilər üzrə öhdəliklər | 75,832 | 235,386 |
| Sosial ayırmalar üzrə hesablaşmalar | -- | -- |
| **Cəmi** | **75,832** | **235,386** |

## 12. BORC ÖHDƏLİKLƏRİ

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Bank kreditləri | 295,000 | -- |
| Təsisçi və ya səhmdarlarla hesablaşmalar | 281,323 | 11,470 |
| **Cəmi borc öhdəlikləri** | **576,323** | **11,470** |

## 13. KREDİTOR BORCLARI VƏ DİGƏR CARİ ÖHDƏLİKLƏR

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Malsatan və podratçılara qısamüddətli kreditor borcları | 85,802 | 690,548 |
| **Cəmi maliyyə borcları** | **85,802** | **690,548** |
| Alınmış avans vəsaitləri | 568,952 | 1,197,458 |
| Təhtəlhesab məbləğlər | -- | -- |
| Digər cari öhdəliklər | 98,460 | 6,475 |
| **Cəmi digər öhdəliklər** | **667,412** | **1,203,933** |

## 14. NİZAMNAMƏ KAPİTALI

Nizamnamə kapitalı ilkin dəyər ilə tanınır. Nizamnamə kapitalı pul vəsaiti, aktiv və ya başqa formada qoyula bilinər. Təsisçilərin payı vəsait şəklində deyil, aktiv və ya başqa formada kapitala əlavə edildikdə onların dəyəri əməliyyatın aparıldığı tarixə ədalətli dəyər ilə qeydə alınır. 31 dekabr 2022-ci il tarixinə Qrupun nizamnamə kapitalının miqdarı 200,00 manat təşkil edir.

## 15. GƏLİR

| | **31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə** |
|---|---|---|
| İşlərin görülməsindən və malların satışından | 2,881,105 | 4,527,904 |
| İcarə xidmətlərindən əldə edilən gəlir | -- | -- |
| **Cəmi gəlir** | **2,881,105** | **4,527,904** |

## 16. SATIŞIN MAYA DƏYƏRİ

| | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Material xərcləri | (32,811) | (37,841) |
| Malın dəyəri | (578,109) | (1,871,345) |
| Kommunal xərcləri | -- | -- |
| Əmək haqqı və digər hesablamalar | -- | -- |
| Köhnəlmə və amortizasiya xərcləri | -- | -- |
| Mənfəət vergisindən başqa digər vergilər | -- | -- |
| Yanacaq xərcləri | -- | -- |
| Sığorta xərcləri | -- | -- |
| Təmir və texniki xidmət xərcləri | -- | -- |
| Hazır məhsul, yarımfabrikat və tamamlanmamış istehsalda dəyişiklik | -- | -- |
| Digər xərclər | -- | -- |
| **Cəmi satışın maya dəyəri** | **(610,920)** | **(1,909,186)** |

## 17. ÜMUMİ VƏ İNZİBATİ XƏRCLƏR

| | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Əmək haqqı və digər hesablamalar | (1,590,659) | (1,245,670) |
| Köhnəlmə və amortizasiya xərcləri | (76,079) | (75,042) |
| Sosial sığorta xərcləri | (289,190) | (207,045) |
| Ezamiyyə xərcləri | (8,357) | (32,383) |
| Bank xidmətləri üzrə xərclər | (36,205) | (25,049) |
| Təmir və texniki xidmət xərcləri | (1,323) | (776) |
| İcarə xərcləri | (183,788) | (213,840) |
| Mənfəət vergisindən başqa vergilər | (1,878) | (2,383) |
| Rabitə xərcləri | (68,769) | (95,756) |
| Yanacaq xərcləri | (7,300) | (14,144) |
| Kommunal xərclər | (6,283) | (7,304) |
| Sığorta xərcləri | (5,962) | (82,208) |
| İşlərin aparılması xərcləri | (134,791) | -- |
| **Cəmi ümumi və inzibati xərclər** | **(2,410,584)** | **(2,001,600)** |

## 18. SATIŞ VƏ PAYLANMA XƏRCLƏRİ

| | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Nəqliyyat xərcləri | -- | -- |
| Reklam xərcləri | (3,488) | (84,551) |
| Broker xərcləri | -- | -- |
| Digər xərclər | -- | -- |
| **Cəmi satış və paylanma xərcləri** | **(3,488)** | **(84,551)** |

## 19. MALİYYƏ XƏRCLƏRİ

| | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| İcarə öhdəlikləri üzrə faiz | -- | -- |
| Borc öhdəlikləri üzrə faiz | -- | -- |
| Kreditor borcları üzrə faiz | -- | -- |
| **Cəmi maliyyə xərcləri** | **--** | **--** |

## 20. DİGƏR GƏLİRLƏR/(XƏRCLƏR), XALİS

| | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Əmlak, tikili və avadanlıqların satışı/silinməsi üzrə gəlir/zərər | (11,065) | -- |
| Xarici valyutaların manata nisbətən məzənnəsinin dəyişməsindən yaranan fərq | 646 | 584 |
| Faiz gəlirlər | -- | -- |
| Ümumi gəlirdən çıxılmalar | (23,600) | -- |
| Digər gəlirlər | 11,120 | 41,176 |
| Digər xərclər | (156,350) | (220,678) |
| **Cəmi digər gəlirlər/(xərclər), xalis** | **(179,249)** | **(178,918)** |

## 21. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

**Məhkəmə prosedurları**

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Qrupa qarşı iddialar irəli sürülə bilər. Rəhbərlik hesab edir ki, heç bir əhəmiyyətli hesablanmamış zərər baş verməyəcək və buna uyğun olaraq hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında heç bir ehtiyat yaradılmamışdır.

**Vergi qanunvericiliyi**

Azərbaycan Respublikasının kommersiya və vergi qanunvericiliyi müxtəlif şərhlərə və dəyişikliklərə səbəb ola bilər. Bundan əlavə, rəhbərlik tərəfindən vergi qanunvericiliyinin şərhi vergi orqanlarının şərhindən fərqli ola biləcəyi üçün, əməliyyatlar vergi orqanları tərəfindən yenidən yoxlanıla bilər və nəticədə Qrupa əlavə vergilər, cərimələr və faizlər hesablana bilər.

Qrup bütün vergi ödəmələrini artıq həyata keçirdiyinə inanır və bu səbəbdən konsolidasiya edilmiş maliyyə hesabatlarında heç bir vergi öhdəliyi yaratmamışdır. Vergi dövrləri üç il ərzində vergi orqanları tərəfindən təhlil olunması üçün açıq olaraq qalır.

## 22. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

## 1. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ SİYASƏTİ

Qrupun fəaliyyəti üçün risklərin idarə edilməsi əməliyyatların mühüm elementini təşkil edir. Qrupun əməliyyatlarına təsir göstərəcək əsas risklər aşağıdakılardan ibarətdir:

- 
- Kredit riski;
- Likvidlik riski;
- Bazar riski.

Qrupun rəhbərliyi anlayır ki, səmərəli risklərin idarə olunması sisteminə malik olmaq vacib şərtdir. Bu məqsədlə, Qrup rəhbərliyi risk idarəetmə qrupu yaratmışdır. Bu qrupun əsas məqsədi Qrupu ehtimal edilən risklərə qarşı qorumaq və ona qarşıda qoyulan hədəflərə çatmaq imkanı yaratmaqdır. Risklərin idarə olunması qrupu vasitəsilə Qrupun rəhbərliyi, aşağıdakı risklərin idarə olunmasına nəzarət edir:

### Kredit riski

Qrup kredit riskinə məruz qalır ki, bu zaman maliyyə alətinə tərəf olan bir iştirakçı öz öhdəliyini yerinə yetirə bilmir və digər tərəf buna görə maliyyə zərərinə məruz qalır.

**Maksimal kredit riski**

Qrupun məruz qaldığı maksimal kredit riski fərdi risklərdən və ümumi iqtisadiyyatın daşıdığı risklərdən asılı olaraq əhəmiyyətli dərəcədə fərqlənir.

**Likvidlik riski**

Maliyyə aktivləri və öhdəliklərinin ödəmə müddəti üst-üstə düşmədikdə likvidlik riski risk kimi müəyyənləşdirilir. Likvidlik riski Qrupun Maliyyə heyəti tərəfindən idarə olunur. Qrup likvidliyin idarə olunması üçün rəhbərliyi öhdəliklərin yerinə yetirilməsi üçün zəruri likvidlik aktivləri səviyyəsinin hesab edilməsini; maliyyələşdirmə vəsaitlərinin əldə olunması üzrə imkanların saxlanılmasını, idarəetmə qaydalarına qarşı təəhhüdlər planı və nizamnamə tələblərinə qarşı maliyyə vəziyyəti hesabatı likvidlik əmsalının monitorinqinin keçirilməsini tələb edir.

Likvidlik və faiz dərəcəsi risklərinin təhlilləri aşağıdakı cədvəldə qeyd olunmuşdur.

31 dekabr 2022-ci il tarixinə maliyyə aktivləri və öhdəliklərinin ödəniş qrafiki üzrə təhlili aşağıdakı kimi olmuşdur:

| | Orta çəkili effektiv faiz dərəcəsi | 1 aya qədər | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilədək | 5 ildən artıq | 31 dekabr 2022-ci il |
|---|---|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri:** | | | | | | | |
| Debitor borcları və digər alınacaq vəsaitlər | | 60,850 | 74,378 | -- | -- | -- | 135,228 |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 18,575 | 14,009 | -- | -- | -- | 32,584 |
| Təchizatçılara verilmiş avans ödənişləri | | -- | -- | -- | -- | -- | -- |
| Digər maliyyə aktivləri | | 7,970 | 20,595 | 37,864 | | | 66,429 |
| **Cəmi maliyyə aktivləri** | | **87,395** | **108,982** | **37,864** | **--** | **--** | **234,241** |
| **Maliyyə öhdəlikləri:** | | | | | | | |
| Bank kreditləri | 4.01% | -- | -- | -- | 295,000 | -- | 295,000 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 7,62% | 26,540 | 49,292 | -- | -- | -- | 75,832 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 4,30% | 18,876 | 37,753 | 29,173 | -- | -- | 85,802 |
| Alınmış avans vəsaitləri | | -- | 199,130 | 369,822 | -- | -- | 568,952 |
| Səhmdara ödəniləcək vəsaitlər | | 42,198 | -- | 239,125 | -- | -- | 281,323 |
| Təhtəlhesab məbləğlər | | -- | -- | -- | -- | -- | -- |
| İşçilərə ödəniləcək vəsaitlər | | -- | -- | -- | -- | -- | -- |
| Digər maliyyə öhdəlikləri | | 36,430 | 24,615 | 37,415 | -- | -- | 98,460 |
| **Cəmi maliyyə öhdəlikləri** | | **124,044** | **310,790** | **675,535** | **295,000** | **--** | **1,405,369** |
| Likvidlik boşluğu | | (36,649) | (201,808) | (637,671) | (295,000) | -- | (1,171,128) |
| **Məcmu likvidlik boşluğu** | | **(36,649)** | **(238,457)** | **(876,128)** | **(1,171,128)** | **(1,171,128)** | **(1,171,128)** |

31 dekabr 2021-ci il tarixinə maliyyə aktivləri və öhdəliklərinin ödəniş qrafiki üzrə təhlili aşağıdakı kimi olmuşdur:

| | Orta çəkili effektiv faiz dərəcəsi | 1 aya qədər | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilədək | 5 ildən artıq | 31 dekabr 2021-ci il |
|---|---|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri:** | | | | | | | |
| Debitor borcları və digər alınacaq vəsaitlər | | 54,698 | 91,163 | 218,792 | -- | -- | 364,653 |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 102,040 | 45,920 | 107,146 | -- | -- | 255,106 |
| Təchizatçılara verilmiş avans ödənişləri | | -- | 91,744 | 170,382 | -- | -- | 262,126 |
| Gələcək dövrün xərcləri | | -- | 16,346 | -- | -- | -- | 16,346 |
| Digər maliyyə aktivləri | | 20,168 | -- | 71,507 | -- | -- | 91,675 |
| **Cəmi maliyyə aktivləri** | | **176,906** | **245,173** | **567,827** | **--** | **--** | **989,906** |
| **Maliyyə öhdəlikləri:** | | | | | | | |
| Bank kreditləri | 3.10% | -- | -- | -- | -- | -- | -- |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 6.47% | 235,386 | -- | -- | -- | -- | 235,386 |
| Kreditor borcları və digər ödəniləcək vəsaitlər | 4.30% | 220,975 | 82,865 | 386,708 | -- | -- | 690,548 |
| Alınmış avans vəsaitləri | | 646,627 | 299,365 | 251,466 | -- | -- | 1,197,458 |
| Səhmdara ödəniləcək vəsaitlər | | -- | -- | 11,470 | -- | -- | 11,470 |
| Təhtəlhesab məbləğlər | | -- | -- | -- | -- | -- | -- |
| Digər maliyyə öhdəlikləri | | 2,655 | 3,820 | -- | -- | -- | 6,475 |
| **Cəmi maliyyə öhdəlikləri** | | **1,105,643** | **386,050** | **649,644** | **--** | **--** | **2,141,337** |
| Likvidlik boşluğu | | (928,737) | (140,877) | (81,817) | -- | -- | (1,151,431) |
| **Məcmu likvidlik boşluğu** | | **(928,737)** | **(1,069,614)** | **(1,151,431)** | **(1,151,431)** | **(1,151,431)** | **(1,151,431)** |

Likvidlik və faiz dərəcəsi üzrə təhlillər 7 saylı MHBS standartına müvafiq olaraq aşağıda göstərilən cədvəllərdə təqdim edilmişdir. Bu cədvəllərdə əks edilən məbləğlər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilən məbləğlərlə uyğun deyil, ona görə ki, aşağıdakı təqdimat maliyyə öhdəliklərinin maliyyə vəziyyəti haqqında hesabatında effektiv faiz üsulu əsasında təqdim edilmiş ümumi müqavilə üzrə qalıq ödənişlərini (faizlərin ödənişi daxil olmaqla) əks etdirən ödəniş müddətlərinin təhlillərini əhatə edir.

**Xarici valyuta riski**

Məzənnə fərqlərindən asılı olaraq maliyyə alətinin dəyərindəki dəyişmələr xarici valyuta riski adlanır. Qrupun maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti mövcud valyuta məzənnələrinin dəyişməsi zamanı belə risklərin təsirinə məruz qalır.

Qrupun xarici valyuta məzənnələrinin dəyişməsi zamanı məruz qalacağı risklər aşağıdakı cədvəldə təqdim edilmişdir:

| | AZN | ABŞ dolları | Avro | Digər valyuta (RSD, KGS, BAM və UAH) | 31 dekabr 2022-ci il Cəmi |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Debitor borcları və digər alınacaq | 30,095 | 105,133 | -- | -- | 135,228 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 31,389 | 1,195 | -- | -- | 32,584 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **61,484** | **106,328** | **--** | **--** | **167,812** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Kreditor borcları və digər ödəniləcək | 12,528 | 73,274 | -- | -- | 85,802 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **12,528** | **73,274** | **--** | **--** | **85,802** |
| **AÇIQ VALYUTA MÖVQEYİ** | **48,956** | **33,054** | **--** | **--** | **82,010** |

| | AZN | ABŞ dolları | Avro | Digər valyuta (RSD, KGS, BAM və UAH) | 31 dekabr 2021-ci il Cəmi |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Debitor borcları və digər alınacaq | 259,478 | 105,175 | -- | -- | 364,653 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 252,099 | 3,007 | -- | -- | 255,106 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **511,577** | **108,182** | **--** | **--** | **619,759** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Kreditor borcları və digər ödəniləcəsk vəsaitlər | 210,129 | 480,419 | -- | -- | 690,548 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **210,129** | **480,419** | **--** | **--** | **690,548** |
| **AÇIQ VALYUTA MÖVQEYİ** | **301,448** | **(372,237)** | **--** | **--** | **(70,789)** |

**Xarici valyuta riskinə həssaslıq**

Aşağıdakı cədvəl Qrupun ABŞ dollarının və Avronun Azərbaycan manatına nisbətən məzənnəsində 10%-lik artmasına və ya azalmasına həssaslığını təhlil edir. 10% rəhbərlik tərəfindən xarici valyuta risklərini təhlil edərkən daxili risk hesabatlarında xarici valyuta məzənnəsinin dəyişməsinin Qrupa təsirini təhlil edərkən istifadə olunur.

Həssaslıq təhlili xarici valyutada olan monetar aktiv və öhdəliklərin hesabat tarixinə olan qalıq dəyərindən istifadə edir və bu dəyəri məzənnədəki 10%-lik dəyişiklik üçün uyğunlaşdırır. Əgər xarici ölkələrə verilmiş kreditlər və xaricdəki əməliyyatlar üzrə verilmiş kreditlər borc verənin və ya borc alanın valyutasında deyilsə, bu məbləğlər də həssaslıq təhlilinə daxil edilir.

## 23. HESABAT TARİXİNDƏN SONRAKI HADİSƏLƏR

Hesabat tarixindən sonrakı dövr ərzində Qrupun fəaliyyətində hər hansı əhəmiyyətli dəyişiklik baş verməmişdir.